

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Andına sadiq qalan...

## Hər bir azərbaycanlının Prezidenti



Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

31 oktyabr 2024-cü il, cümə axşamı
№ 201 (6787)
Qiymәti 60 qəpik



## "Yaşıl dünya naminə həmrəylik ili"nə daha bir töhfə...

## İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olub

Bax səh. 2

## Zəfərə 9 gün qalırdı...

Bax səh. 2

## Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə...

Ötən gün "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)" mövzusunda dəyirmi masa keçirilib. Tədbir Əqli Mülkiyyət Agentliyi tərəfindən təşkil olunub. Dəyirmi masada iqlim dəyişikliyi ilə mübarizədə təkcə siyasi iradənin deyil, qabaqcıl texnologiyaların da rol oynadığı vurğulanıb. Bu baxımdan əqli mülkiyyət hüquqlarının qorunmasının mühüm şərt olduğu bildirilib.

Tədbirdə çıxış edənlər Əqli Mülkiyyət Agentliyinin müvafiq istiqamətdə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər. Agentliyin sədri Kamran İmanov tədbirin əsas məqsədinin əqli mülkiyyətə əsaslanan innovasiyaların yaşıl gələcəkdəki rolunu göstərmək, təhlil etmək və innovasiyalara bu həyati məsələdə dəstək verməkdən ibarət olduğunu söyləyib: "Kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq, insan cəmiyyəti "yaşıl" gələcək yaratmağa qadirdir. Müasir dünyada yaşıl innovasiya, yaşıl texnologiya, yaşıl patent, yaşıl enerji kimi anlayışlar aktual mövzulardır. Təsadüfi deyil ki, Qlobal İnnovasiya İndeksi üzrə hesabatlarda innovasiyaların enerji mənbəyi kimi vacib rolu vurğulanır.

İqlim problematikasında təbiət və zəkanın maraqları toqquşmayan, ziddiyyətli olmayan mövqedən irəli gələn yeni ekoloji düşüncə və şüur durur. Bu, ilk növbədə, akademik Nikita Moiseyevin dediyi kimi, "ekoloji imperativ"dir. Yəni, sadəcə olaraq təbiət qanunları ilə...

Bax səh. 4



## COP29-u hədəfə alanlar...

Bax səh. 2

## Qlobal bazarlarda ucuzlaşma

Dünya Bankı (DB) qlobal əmtəə bazarlarındakı vəziyyətə dair yeni proqnozlarını açıqlayıb. Bankın bugünlərdə dərc edilmiş hesabatında qeyd edilir ki, müxtəlif coğrafiyalarda baş verən müharibələr və Yaxın Şərqdə davam edən münaqişələr dünya enerji bazarlarında neft tariflərini tez-tez dəyişdirir. Münaqişələrin gərginləşməsi bir sıra təchizatçıların yanacaq tədarükü zəncirini pozur ki, bu da yanacağı bahalaşdırır. Ancaq sabitlik mühitində neft qiymətlərində...

Bax səh. 4

## Rusiya cəbhədə irəliləyir, Zelenski isə...

Rusiya-Ukrayna müharibəsinin dayandırılması ilə bağlı çağırışlar nəticə vermir. Əksinə, son vaxtlar Rusiya ordusu hücumlarını daha da gücləndirib və Ukrayna ərazisində irəliləməyə davam edir.

Bu yaxınlarda Ukrayna lideri Volodimir Zelenski münaqişənin 2025-ci ildən gec olmayaraq başa çatmasına ümid bəslədiyini söyləmişdi. O, bu fikrini döyüş meydanındakı vəziyyətlə əlaqələndirməyə çalışırdı. Nəzərə alaq ki...

Bax səh. 7

## Türkiyə Qarabağda sərmayə fəallığını artırır

Türkiyə kapitallı "Birlik Deri" MMC Ağdam Sənaye Parkında rezidentlik hüququ alaraq xarici investor statusunda fəaliyyətə başlayıb. Şirkət ilk sərmayə proqramı çərçivəsində sənaye parkına 20,8 milyon manat investisiya yatıracaq. Dəri və dəri məmulatları istehsal etməyi planlaşdıran "Birlik Deri" MMC İtaliya, Türkiyə, Cənubi Koreya kimi qabaqcıl ölkələrin texnologiyalarına əsaslanan sənaye bölməsi yaratmaqla, müəssisədə istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracını da nəzərdə tutur. Layihə çərçivəsində 250-dən çox yeni iş yerinin yaradılması hədəflənib ki, onların böyük qismi yerli sakinlər olacaq.

Türkiyəli investorlar azad ərazilərdə 3 ildən artıqdır ki, müxtəlif sektorlarda təmsil olunur. Zəngilanda iki ölkənin birgə sərmayə layihəsi olan "DOST Aqropark" bölgənin iqtisadi potensialından istifadə olunmasında ilk təməllərdən biri olmaqla, böyük bir aqrar-sənaye şəbəkəsinin formalaşmasına və digər investorların cəlb edilməsinə zəmin yaradıb. Burada ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub və layihə Türkiyə iş adamlarının azad edilmiş torpaqlarda digər layihələrə də marağını artırıb. Türkiyənin mədənçıxarma şirkətləri də 2 ildən artıqdır ki, bu bölgədə fəaliyyət göstərir. Qardaş ölkənin "Cengiz Holdinq" qrupuna daxil olan "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətləri ilə Azərbaycan hökuməti arasında işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisində yerləşən "Qaşqaçay", "Elbəydaş"...

Bax səh. 5



## Maskası yırtıldı...

### Fransadan növbəti sabotaj cəhdi

Bax səh. 5



## Qərbin Gürcüstan planı fiaskoya uğrayır...

Bax səh. 6

# “Yaşıl dünya naminə həmrəylik ili”nə daha bir töhfə...



## Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına burada həyata keçirilən abadlıq və yenidənqurma işləri, yeni salınan parkda yaradılan şərait barədə məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır.

Bildirildi ki, yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. “Yaşıl dünya naminə həmrəylik ili”ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından əhəmiyyətlidir. Yeni parkın salınması gələn ay COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.



## Zəfərə 9 gün qalırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 35-ci günü**
**31.10.2020**

• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. İşğalçı ordunun xeyli sayda canlı qüvvəsi, iki ədəd T-72 tankı, üç ədəd piyada döyüş maşını, iki ədəd “Smerç” və iki ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemləri, 12 ədəd müxtəlif tipli topu, bir ədəd “Osa” zenit raket kompleksi, bir ədəd radioelektron mübarizə stansiyası, iki ədəd avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Prezident İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibə verib.

• Qubadlını artilleriya atəşinə tutan düşmənə cavab zərbələri endirilib.

• Ermənistan ordusunun döyüş texnikası və xeyli sayda canlı qüvvəsi, kəşfiyyat-diversiya qrupu məhv edilib və iki hərbi nəqliyyat vasitəsi sıradan çıxarılıb.

• Ermənistan Silahlı Qüvvələrinin təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 31-i saat 13:00-dək 91 mülki şəxs həlak olub, 404 nəfər yaralanıb, 2465 ev, 97 çoxmənzilli yaşayış binası və 455 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.



# COP29-u hədəfə alanlar...

### Azərbaycanın beynəlxalq nüfuzundan qorxur, yeni siyasi reallıqlardan çəkinirlər

## Qərbin qeyri-hüquqi davranışı və qavrayışı...

Azərbaycanın irəli sürdüyü təşəbbüslər adətən qlobal xarakterli olmaqla yanaşı, yeni çağırışları, müasir və innovativ yanaşmaları özündə əks etdirir. Təcrübə də göstərir ki, ölkəmizin beynəlxalq miqyasa malik problemlərin həllinə baxışı və ortaya qoyduğu həll yolları pozitiv dəyərləndirilir. Bu mənada, bir neçə gündən sonra Bakıda reallaşacaq COP29-un da mövcud problemlərə qarşı mübarizədə mühüm bir mərhələyə çevriləcəyinə inam və ümid böyükdür. Artıq bir çox dövlətlər rəsmi Bakının ortaya qoyduğu bu müsbət davranışa dəstək verir, proses çərçivəsində yeni addımların atılması zərurətini səsləndirir, Azərbaycanın nümayiş etdirdiyi iradəni alqışlayır.

Sirr deyil ki, Azərbaycanın moderatorluğu ilə baş tutacaq iqlim problemləri müzakirəsi qlobal dünyaya olduqca mühüm mesajlar yönləndirməklə yanaşı, çıxış yollarının tapılmasında da həlledici rola malik ola bilər. Azərbaycanın COP29-a ev sahibliyi etməsi məhz bu amillərin açıq təzahürüdür - ölkəmizin sülh və təhlükəsizlik, yaşıl inkişaf xətti uğrunda ortaya qoyduğu iradə bütün ştrixləri ilə qlobal əməkdaşlığın güclənməsinə hədəflənib.

## Manipulyasiya cəhdləri...

Amma məsələnin pozitiv notları olduğu qədər, fərqli bir “üzü” də var - təəssüfləndirici haldır ki, Azərbaycanın qlobal problemlərdən çıxış yolları axtarılması üçün səylərin birləşdirilməsi təşəbbüsü bəzi dairələr, ölkələr tərəfindən manipulyasiya edilir. Görünən budur ki, qlobal təhlükəsizliyə töhfə sayılacaq addımlar yenə də erməni lobbisi, ermənipərəst dairələrin nəzarətində olan, maliyyə dəstəyi əsasında çıxış edən qruplar tərəfindən istismara məruz qalır. Bu xoş təşəbbüsdən istifadə edərək əsassız iddialar səsləndirilir, kampaniyalar yaradılmasına çalışılır. Sabitlik adası kimi çıxış edən Azərbaycanın mühüm bir regionda sülhü bərqərar etməsi faktı etiraf olunarkən, bu amilin üzərinə kölgə salmaq istəyən bu xarici dairələr fərqli oyunlarla gündəmə gəlmək istəyirlər. Vurğulandığı kimi, bu məsələdə xüsusilə Ermənistan ilə münasbətlərin tənzimlənməsi prosesi manipulyasiya aləti kimi istifadə edilir. Sülhlə bağlı danışıqlar prosesinin daha da irəliyə aparılması perspekivinin olması, COP29-un birləşdirici mahiyyəti və ondan istifadə imkanları, ikili təmasların bu tədbirlə bağlı mühüm əhəmiyyətə malik qərarlara vəsiləyə çevrilməsi (ötən ilin dekabrında hər iki dövlətin rəsmi strakturlarının birgə açıqlamasında Ermənistan COP29-un Azərbaycanda keçirilməsini dəstəkləmişdi) həmin dairələrə rahatlıq vermir. Bu səbəbdəndir ki, ayrı-ayrı dövlətlərin strukturları fərqli zamanlama ilə eyni planın tərkib hissəsi olan “bəyanatlar” verir, “qətnamələr” hazırlayır, “müraciətlər” ünvanlayır...

Məsələn, Azərbaycanın yaratdığı və qlobal sülhü, sabitliyi əks etdirən mənzərəyə təsir göstərmək üçün ABŞ demək ki, bütün “gücü”nü səfərbər edib. Bu ayın əvvəlində 60 ermənipərəst deputatın COP29-u bəhanə gətirərək hərbi cinayətlər törətmiş insanları məsuliyyətdən yayındırmaq cəhdləri müşahidə edilmişdi. Yalan və böhtanla silahlanaraq Azərbaycana

## ABŞ-ın “siyasi oyunları”...

təsir etməyə çalışan ermənipərəst konqresmenlərin əsl məqsədi işğalçıları, separatçıları müdafiə etmək, Ermənistanı davamlı sülhdən yayındırmaq, bölgədə sabitliyin bərqərar olmasına maneçilik törətməkdir. Bu “çağırış” guya hansısa “qrup” tərəfindən irəli sürülsə də, planın elə Dövlət Departamentinin, dövlət katibliyinin “mətbəxində” hazırlanması şübhə doğurmurdu. Çünki ABŞ hakimiyyətinin qurduğu siyasi oyunlar primitiv və gülünc xarakter daşıdığı qədər də, demokratiyadan uzaq, hüquq müstəvisindən kənardır. ABŞ özünü bir addım sonra ifşa edir -prezident Co Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə məktubunda da “sülhü tezləşdirmək” tezisinin yer alması bunu təsdiqləyir. Aydın olur ki, bəzi qüvvələr COP29 amilindən istifadə edərək özünün qrup maraqlarını təmin etməyə çalışır. Nəticə isə ortadadır - ABŞ Azərbaycanın mövqeyinə təsir etmək imkanında deyil və ermənipərəst deputatların bəhs olunan “müraciəti” yalnız və yalnız özünüifşa faktı kimi yadda qaldı...




## Paris nə istəyir?

ABŞ bu məsələdə tək deyil - erməniпərəst Fransa hər zaman olduğu kimi, yenə də öz ampluasındadır. Əslində COP29-la bağlı təzyiq kampaniyasına qədər də bu ölkənin Azərbaycana münasibəti bəlli idi - onların erməni separatizmini dəstəkləməsi, hətta Ermənistanı revanşizmə sürükləyərək silah-sursat verməsi faktları da deyilənləri təsdiqləyir. COP29-un Azərbaycanda keçirilməsi ehtimalı yaranan gündən isə Fransa buna qarşı daha aktiv təbliğat kampaniyası formalaşdırıb. Fərqli auditoriyalar vasitəsilə bu beynəlxalq tədbiri hədəfə alan Paris də ABŞ kimi yaranan “situasiyadan” maksimum istifadə etməyə çalışır - onlar da, məhz COP29 pərdəsi altında separatçı cinayətkarların azad edilməsinə çalışırlar. Məsələn, Fransa-Ermənistan parlamentlərarası dostluq qrupunun rəhbəri Jilber-Lyuk Devinaz Qarabağdan könüllü şəkildə Ermənistana köç edən müəyyən sayda erməniləri bəhanə edərək bəzi qeyri-hüquqi “fikirlər səsləndirir” - hazırda Bakıda ədalət mühakiməsi qarşısında törətdiyi əməllərə görə cavab verən keçmiş separatçı rejimin cinayətkar rəhbərlərinin “azad edilməsi” “təşəbbüsünü” qaldırır.

Necə ola bilər ki, özünü “demokratik dövlət” adlandıran Fransa konkret ittihamla cinayətə cəlb olunmuş qatillərə “azadlıq” tələb edir. Və bunda da qlobal iqlim təhlükəsizliyi müzakirələrindən istifadə etməyə çalışır. Deməк ki, bu dövlətin “nümayiş etdirdiyi” beynəlxalq mövqelər saxtadır və Makron hakimiyyəti bütövlükdə lokal maraqların reallaşmasına xidmət edən cılız simaya malikdir. Başqa sözlə, “tarixi missiya” daşıdığını iddia edən Fransa bu gün beynəlxalq hüquqa arxa çevirir, qlobal təhlükəsizlik arxitekturasının gücləndirilməsi ilə bağlı üzərinə məsuliyyət götürmüş Azərbaycanı hədəf alır. Burada “təhlükəsizlik” amilinin önə çəkilməsi də təsadüfi deyil - COP29 gündəliyinə daxil olunmuş 14 böyük təşəbbüsdən biri də məhz sülhün, dialoqun və barışığın daha geniş şəkildə təbliği, iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyır.

Fransanın da bu cəhdləri boşunadır - Paris hər zaman olduğu kimi, siyasi arenada məğlubiyyətə məhkum olduğunu dərk edir. çünki Azərbaycan bütünlüklə fəaliyyyətində beynəlxalq hüquqa istinad edir - bu isə Fransanın qeyri-hüquqi “arzularını” puça çıxarır...

## Qərbin “arzuları”...

Beləliklə, kollektiv Qərbin bəzi ölkələrinin qeyri-hüquqi müstəvidə təzyiq kampaniyası yaratmaq istəyi bütün parametrləri ilə ortaya çıxır. Ayrı-ayrı misallara müraciət edək:

- Bu il oktyabrın 10-da da Niderland Parlamentinin Nümayəndələr Palatası tərəfindən Azərbaycan əleyhinə birtərəfli və qərəzli 2 qətnamə qəbul edilib. Rəsmi Amsterdam separatizmə açıq dəstək göstərir, cinayətkara azadlıq tələb etmək kimi qeyri-hüquqi “tələblər” səsləndirir;

- Kanadanın xarici işlər naziri Melani Coli iddia edir ki, Azərbaycan saxlanılan “erməni məhbusları” azadlığa “buraxmalıdır”, Ermənistanın ərazi bütövlüyünə “hörmətlə” yanaşmalıdır;

- Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi qərəzli və obyektivlikdən tamamilə uzaq qətnamə COP29 öncəsi ölkəmizə qarşı siyasi hücumların növbəti mərhələsidir.

Beləliklə, artıq şərhə ehtiyac qalmır. Erməni lobbisinə söykənən və onların diqtəsi ilə danışan bütün tərəflərin eyni tezislə çıxış etməsi bütün “daşları” yerinə oturdur. Onları narahat edən əsas fakt COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinin qlobal dəstəklə təsdiqlənməsidir - iqlim dəyişikliyi müzakirələrinin Azərbaycanda baş tutması təklifi 198 ölkənin yekdil rəyi ilə təsdiqlənib. Bu isə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu və yerini müəyyənləşdirir. Beləliklə, COP29 üzərindən Azərbaycanı hədəfə alanların “alt-məqsədi” bütünlüklə aşkara çıxır...

## Ermənistan üçün şans...

Ermənistan tədbirə rəsmi dəvət alıb və artıq erməni KİV-i xarici işlər naziri Ararat Mirzoyanın tədbirə qatılacağı ehtimalının böyük olduğunu yazır. Düzdür, əvvəlcə Ermənistan da COP29-dan “bəhrələnərək” bəzi “şərtlər”lə çıxış edə biləcəyini düşünürdü - amma sonda bəlli oldu ki, belə iddia və “təsir mexanizmləri” ilə Azərbaycanı qətiyyətli yolundan döndərmək mümkün deyil. Hətta bu tədbirə baş nazir Paşinyanın qatılması Ermənisan üçün daha məqbul variant ola bilər - bu, həm regionda distabillik yaratmağa çalışan qüvvələrə cavab olardı, həm də Ermənistanın özünün “müstəqil mövqeyə” malik olmasına dəlalət edərdi.

Ermənistan və havadarları unutmamalıdırlar ki, COP29 qlobal bir problemə - iqlim dəyişikliyinə fokuslanır. Düzdür, iqlim təhlükəsizliyi həm də regional sabitliyə, sülh və əməkdaşlığa, yeni innovativ əlaqələrin yaradılmasına əsaslanır ki, bu məsələdə də Azərbaycan mühüm əhəmiyyətli addımları ilə seçilir. Qalib ölkə olduğu halda bölgənin sabit inkişafı üçün Ermənistana sülh təklifi edilməsi məhz bunun bariz göstəricisidir.

Paralel olaraq, Azərbaycan hər zaman iqlim dəyişiklikləri ilə bağlı BMT-nin çağırışlarına qoşulan ölkələr sırasında ən önəmli yerlərdən birini tutub. COP29 isə bu ardıcıl siyasətin növbəti və uğurlu bir mərhələsi kimi tarixə yazılacaq...

***P.İSMAYILOV***

# Andına sadiq qalan...

## Hər bir azərbaycanlının Prezidenti

Bu gün müstəqil Azərbaycan bütün dünyada yüksək inkişaf dinamikasına malik olan dövlət kimi tanınır. Ölkəmiz tarixdən gələn ənənələri, milli-mənəvi dəyərləri qorumaqla müasirləşmə yolunda inamlı addımlarını atır. Ölkəmizin beynəlxalq nüfuzu kifayət qədər yüksəkdir. Azərbaycan beynəlxalq hüquqa, müstəqillik və suverenlik kimi prinsiplərə əsaslanan siyasət həyata keçirir, bütün səviyyələrdə milli maraqlarını qətiyyətlə qoruyur. Məhz buna görədir ki, ölkəmiz dünyada ləyaqətli dövlət kimi tanınır və ona böyük etimad göstərilir. Respublikamızın gücü, potensialı o səviyyədə artıb ki, biz hədəflərimizə, ümummilli məqsədlərimizə kənardan dəstək gözləmədən, sırf öz gücümüzə nail oluruq. Belə uğurlu siyasətin əsasında isə ilk dəfə 2003 cü il oktyabrın 15 keçirilən Prezident seçkilərində dövlət başçısı seçilən İlham Əliyevin strateji düçüncə və yanaşmaları, gərgin fəaliyyəti dayanır. Həmin seçkilərin nəticələrinə uyğun olaraq Prezident İlham Əliyev tarixin bu günündə - 31 oktyabr 2003-cü ildə and içib və ötən dövrdə andına sadiq qalıb.

### Xalqın inamının təməlində dayanan iki mühüm amil

Seçkilər, adətən, ölkədəki ab-havanın, ictimai-siyasi mühitin barometri kimi dəyərləndirilir. İnsanların dövlətin apardığı siyasətdən, liderlərin fəaliyyətlərindən razı qalıb-qalmamaları məhz seçkilərdə özünü təzahür etdirir. Bu mənada respublikamızda 2003-cü il 15 oktyabr tarixində keçirilən prezident seçkiləri də istisna olmadı. Seçkilərdə İlham Əliyevin mütləq səs çoxluğu ilə-seçicilərin 76,86 faizi Ona səs vermişdi-qalib gəlməsi bir sıra zəruri amillərlə şərtlənirdi. Burada mühüm məqamlardan biri kimi, Azərbaycan xalqının dahi siyasətçi Heydər Əliyevin şəxsiyyətinə hörmət və ehtiramını, Onun əsasını qoyduğu siyasətə inamını qeyd edə bilərik. Heydər Əliyev Azərbaycanın intibahı üçün fundamental əsaslar yaradan tarixi şəxsiyyətdir. Onun portretini tamamlayan ştrixlər kifayət qədər zəngin və çoxşaxəlidir. Bu dahi şəxsiyyət barəsində söhbət açanda yada düşən və minnətdarlıq hissi ilə xatırlanan ilk məqamlardan biri Onun müdrikliyi və milli təəssübleşliyi, xalqına bağlılığıdır. O, Azərbaycana rəhbərliyi ideoloji baxımdan fərqli formasiyalarda həyata keçirsə də, həmişə xalqımızın gələcəyinə, milli maraqlarına hesablanan fəaliyyət həyata keçirib. XX yüzillikdə ikinci dəfə qazandığımız müstəqilliyimizin xilası da məhz bu böyük şəxsiyyətin adı ilə bağlıdır. Gənc dövlətimizin müqəddəratının təhlükə qarşısında olduğu 1993-cü ilin yayında xalq Ona üz tutaraq Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini təkid etdi. Xalqın çağırışını qəbul edərək həmin çətin dönəmdə Azərbaycana rəhbərliyi üzərinə götürən Heydər Əliyev Ona xas olan müdriklik və uzaqgörənliklə xilaskarlıq missiyasını yerinə yetirdi.

Daim Azərbaycanın gələcəyini düşünən Heydər Əliyev seçkilərdən bir qədər əvvəl-2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət ünvanlayaraq öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi və seçiciləri prezidentliyə namizəd, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırdı. Azərbaycan xalqı müdrik oğlunun bu çağırışını məmnuniyyətlə qəbul etdi. Seçkilərin təyin olunduğu gün seçki məntəqələrində, sözün əsil mənasında, böyük qələbəlik yaşanırdı. İnsanlar sübh tezdən dəstə-dəstə seçki məntəqələrinə gəlir və burada öz iradələrini ifadə edirdilər.

2003-cü il oktyabrın 15-də yüksək seçici fəallığı şəraitində keçən seçkilərdə xalqın İlham Əliyevə etimad göstərməsinin təməlində dayanan digər mühüm amil isə bilavasitə Onun özünün şəxsiyyəti ilə bağlı idi. O, indiyədək çox uğurlu və şərəfli bir yol keçmişdi, tapşırılan bütün vəzifələrdə layiqincə çalışmış və yüksək nəticələr qazanmışdı. Bütün bunlar da seçkilərdə xalqın Ona inamını şərtləndirən əsas amillərdən oldu.



### Xalqın gücü, dəstəyi ilə ölkəni gücləndirmək hədəfi

Hər bir azərbaycanlı ölkəmizi güclü dövətlər sırasında görmək istəyir. Prezident İlham Əliyevin 2003-cü ildə ilk dəfə Prezident seçilərkən verdiyi vədlərdən biri Azərbaycanın gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəyi bağlı idi. O bildirirdi ki, neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizin hərtərəfli inkişafına nail olacağıq. Prezident İlham Əliyev vəd vermişdi ki, xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcək, yeni zavodlar, fabriklər istifadəyə veriləcək. Sahibkarlığın inkişafı üçün tədbirlər planının, Azərbaycanda iqtisadi inkişaf proqramının hazırlandığını deyən İlham Əliyev əminliklə bildirirdi ki, bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcək. Prezident İlham Əliyev bu vədləri verərkən respublikamızın güclü potensialına istinad edirdi.

O, bildirib ki, bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Ötən 20 ildə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə geniş əhatə dairəsinə malik olan islahatlar reallaşdırılıb, ölkədə iqtisadi inkişaf üçün bütün şərtlər təmin edilib. Bu illər ərzində transmilli şirkətlərlə imzalanan müqavilələr üzrə ölkəmizə gələn gəlirlərin müəyyən bir hissəsi məqsədyönlü şəkildə sosial və iqtisadi önəm daşıyan infrastruktur layihələrinin icrasına, qeyri-neft sektorunun inkişafına yönəldilib. Respublikamızda sahibkarlıq mühiti davamlı olaraq optimallaşdırılıb, yerli istehsal və ixrac təşviq edilib. Bütün bunların nəticəsində də milli iqtisadiyyatımız dinamik şəkildə inşişaf edib. Sevindirici haldır ki, hazırda Azərbaycan dünya üzrə iqtisadi müstəqilliyini yüksək səviyyədə təmin edən azsaylı ölkələr sırasında yer alır. İqtisadi müstəqilliyin təmin edilməsi ölkəmizin milli maraqlar əsasında müstəqil siyasi kurs həyata keçirməsinə zəmin yaradıb. Bu gün Azərbaycan heç bir güc mərkəzindən asılı deyil, heç kim ölkəmizlə diktat dili ilə danışa bilməz və danışmır da.



### Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin təmin olunması məqsədinə çatıb

Ötən üç onillik ərzində ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması xalqımızın əsas ümummilli ideyasını təşkil edib. Prezident İlham Əliyevin 2003-cü ildə verdiyi əsas vədlərdən biri də məhz bununla bağlı idi. Cari il fevralın 14-də Milli Məclisdə baş tutan son andiçmə mərasimində söylədiyi nitqində həmin vədini xatırladan dövlətimizin başçısı deyib: “Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik”.

Vətən müharibəsindən sonra Azərbaycan ötən il sentyabrın 19-20-də təxminən 23 saat davam edən uğurlu antiterror tədbirləri həyata keçirərək Qarabağda özünün suverenliyini tam təmin etdi. Bununla da Qarabağda separatçı rejimin mövcudluğuna son qoyuldu. İlham Əliyev ötən il 15 oktyabr tarixində - ilk dəfə Prezident seçilməsinin 20 ilinin tamam olduğu gündə Xankəndidə Azərbaycan Bayrağını ucaltmaqla xalqımıza, bütün dünya azərbaycanlılarına sonsuz qürur hissi yaşatdı.

Həm 44 günlük Vətən müharibəsində, həm də 23 saatlıq antiterror tədbirlərində qazanılan qələbələr son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətin məntiqi nəticələridir. Prezident İlham Əliyev ötən dövrdəki fəaliyyətində ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasını Azərbaycanın gündəliyiin mərkəzində saxladı. Güclü iqtisadi inkişaf, ölkənin maliyyə imkanlarının artması qarşıda duran bütün vəzifələri icra etməyə qadir olan müasir Ordu qurmağa imkan verdi. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini məhz hərbi-siyasi yolla təmin etdi. Ordunun möhkəmləndirilməsi qarşıdakı illərdə də ölkəmizin əsas hədəfləri sırasında olacaq.

### Həmişə xalqla bir yerdə

Prezident İlham Əliyev hələ 2003-cü ildə “Mən hər bir azərbaycanlının Prezidenti olacağam” vədini vermişdi. Oldu da. Biz son 20 ildə müşahidə edirik ki, dövlətimizin başçısının ölkənin mənafeyi naminə aldığı bütün qərarlar, atdığı addımlar bilavasitə xalqın sosial sifarişinə əsaslanır. O özünü məhz xalqın etimadını doğrultduqda, ölkədə vətəndaş məmnunluğu artdıqda, ümummilli ideyalarımız həyatda təsdiqini tapdıqda xoşbəxt sanır.

Azərbaycanın uğurlarını şərtləndirən ən əsas amillərdən biri milli inkişaf stretegiyasında ardıcıllığın təmin edilməsidir. O cümlədən Prezident İlham Əliyev ilk dəfə dövlət başçısı seçildiyi 2003-cü ildən etibarən ölkəmizin sosial siyasətində varisliyi yüksək səviyyədə təmin edir. Dövlətimizin başçısı müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarında dəfələrlə birmənalı şəkildə bildirib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları və mənafeyi dayanır. Müəyyənləşdirilən bu siyasi kurs praktiki müstəvidə davamlı tədbirlərlə və islahatlarla təsdiqənir. Ötən dövrdə Prezident İlham Əliyev ölkə vətəndaşlarının rifah halının yaxşılaşmasını, gəlir imkanlarının artırılmasını, məşğulluğun daha geniş miqyasda təmin edilməsini hədəfləyən çoxsaylı sənədlər imzalayıb, bir neçə proqramı təsdiqləyib.

Dövlət başçısının tapşırıqları əsasında ölkə iqtisadiyyatının güclənməsinə, maliyyə imkanlarının artmasına adekvat olaraq sosial sahədə aparılan islahatların əhatə dairəsi genişlənir. Büdcə xərclərində bir sıra üstün istiqamətlər müəyyənləşdirilib ki, sosial sfera da bu sırada yer alır. Azərbaycanın dövlət büdcəsi ənənəvi olaraq sosialyönümlü olması ilə fərqlənib. Biz büdcədə sosial məqsədlər üçün ayrılan vəsaitlərin ildən-ilə artırıldığının şahidi oluruq. Eyni zamanda, Prezident İlham Əliyevin tapşırıqları əsasında ölkədə həyata keçirilən şəffaflaşdırma tədbirlərinin nəticəsi olaraq büdcəyə cəlb olunan bütün əlavə vəsaitlər də məhz sosial sferaya yönəldilir.

Eyni zamanda, Onun rəhbərliyi ilə respublikamızın zirvələrə yüksəlməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması bütün dünya azərbaycanlıları üçün sonsuz qürur mənbəyidir. “2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik”, - deyə Prezident İlham Əliyev cari il fevralın 14-də Milli Məclisdə keçirilən növbəti andiçmə mərasimindəki nitqində respublikamızın son 20 ildə keçdiyi yola nəzər salaraq bildirib.

***Mübariz FEYİZLİ***

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır**

# 44 günlük müharibə ərəfəsində

## 30-a yaxın müsahibə...

***Yeganə BAYRAMOVA***

İkinci Qarabağ müharibəsinin gərgin günlərində Prezident İlham Əliyevin xarici KİV-lərə verdiyi müsahibələr informasiya cəbhəsində haqq mübarizəmizin dünya ictimaiyyətinə çatdırılması üçün müstəsna rol oynamışdı. Ölkə başçısı müharibə zamanı birmənalı olaraq Azərbaycan xalqının düşünən beyni və danışan dili olmuşdu. Bu mənada Prezidentin xarici KİV nümayəndələrinə verdiyi 30-a yaxın müsahibənin, eləcə də xalq qarşısında etdiyi çıxışların milli yaddaşımızı yaşatmaq baxımından müstəsna tarixi əhəmiyyəti qeyd edilməlidir.



Həmin müsahibələr İlham Əliyevin yüksək intellektini, dərin politoloji biliyini, mükəmməl diplomatik məharətini nümayiş etdirirdi. Onun türk, rus və ingilis dillərində verdiyi müsahibələr Azərbaycan gerçəkliyi, Qarabağ probleminin mahiyyəti, Ermənistanı və onu himayə edən şər qüvvələrin bütün dünyanın gözü qarşısında ifşası üçün mühüm əhəmiyyət kəsb edirdi. Ölkə başçısı həmin müsahibələrdə həmçinin erməni tərəfinin Qarabağ problemi ətrafına çəkdiyi yalanlar “sədd”ini dağıtmışdı. Prezidentin xarici mediaya müsahibələri onun bütün cəbhələrdə apardığı döyüşə hazırlıq səviyyəsini dünyaya nümayiş etdirdi. Bu müsahibələrdə bəyan edildi ki, işğalçı Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin davam etdiyi illərdə torpaqlarımızın 20 faizi işğal olunub, 1 milyona yaxın soydaşımız doğma yurd-yuvasından didərgin salınıb.

Ermənistanın 2020-ci ilin iyul ayında Tovuz rayonu ərazisində dövlət sərhəddini pozması, ardınca ölkəmizə təxribat qrupları göndərməsi Azərbaycanın səbir kasasını daşırmışdı. Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı genişmiqyaslı təcavüzündən sonra ordumuz əkshücum əməliyyatı keçirməyə məcbur oldu. Döyüşlər Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda Vətən müharibəsinə çevrildi. Bütün bu həqiqətlər Prezidentin bəhs olunan müsahibələrinin özəyini təşkil edirdi.

4 il öncə, 2020-ci ilin 28 oktyabrında Prezidentin Almaniyanın ARD televiziya kanalına verdiyi müsahibəni xüsusilə xatırlatmaq yerinə düşər. 44 gün müddətində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı ölkə Prezidenti ARD kanalına döyüş əməliyyatları dövründə beynəlxalq aləmi düşündürən, narahat edən zəruri və obyektiv məsələlərə toxunmuşdu. Prezident bu müsahibəsi ilə qərəzli, bədxah suallara son qoydu. ARD-yə verilən müsahibədə həmçinin münaqişənin mahiyyətini açıb göstərən, bu vaxtadək erməni yalan və böhtanları ilə pərdələnmiş həqiqətlərə işıq salan mötəbər, əhatəli və tarixi önəm daşıyan cavablar öz əksini tapmışdı.

Prezident jurnalistin “kim birinci atəş açdı?” sualını belə cavablamışdı: “Atəşi ilk açan Ermənistandır və bizim sübutlarımız var. Çünki mülki şəxslər və hərbçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Bu, bizə qarşı ardıcıl surətdə üçüncü hərbi təxribat idi. Birinci, iyul ayında törədildi. O zaman onlar Ermənistan-Azərbaycan sərhədinə hücum etdilər. Bizim mülki şəxslər və hərbi qulluqçular arasında itkilərimiz olmuşdu. İkinci cəhd avqust ayında baş vermişdi. Ermənistan diversiya qrupu göndərmişdi, onun başçısı tərəfimizdən saxlanılmışdı və o, ifadə vermişdi ki, mülki şəxslərə hücum etmək üçün göndərilmişdi. Üçüncü dəfə sentyabrın 27-də onlar təmas xəttinə yaxın yerləşən bəzi şəhər və kəndləri ağır artilleriya bombardmanına tutdular. Biz cavab verdik və bu, belə başlamışdı”.

Ölkə başçısı müsahibəsində həmçinin qeyd etmişdi ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qalıb: “Bu, onu göstərir ki, vasitəçilik səmərəli olmayıb. Lakin, eyni zamanda, biz daha güclü ola biləcək bəzi başqa ölkələr barədə düşünməyə bilmərik. Ona görə də, müharibəni dayandırmağın yeganə yolu ondan ibarətdir ki, Ermənistan dayansın, öz məğlubiyyətini qəbul etsin, bizim qələbəmizi qəbul etsin və sonra ərazilərin bir hissəsini boşaltmaq barədə öhdəlik götürsün. Biz istənilən halda onları azad edəcəyik. Biz əks-hücuma başlayanda onlar inanmırdılar. Biz dedik - biz azad edəcəyik, bunu indi dayandırın. Onlar hətta biz Füzulini geri qaytarandan sonra da dayana bilərdilər. Amma dayanmadılar...”.

# Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə...

## Dəyirmi masa keçirilib

Ötən gün "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)" mövzusunda dəyirmi masa keçirilib. Tədbir Əqli Mülkiyyət Agentliyi tərəfindən təşkil olunub. Dəyirmi masada iqlim dəyişikliyi ilə mübarizədə təkcə siyasi iradənin deyil, qabaqcıl texnologiyaların da rol oynadığı vurğulanıb. Bu baxımdan əqli mülkiyyət hüquqlarının qorunmasının mühüm şərt olduğu bildirilib.

### Yaşıl innovasiya, yaşıl texnologiya, yaşıl patent

Tədbirdə çıxış edənlər Əqli Mülkiyyət Agentliyinin müvafiq istiqamətdə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər. Agentliyin sədri Kamran İmanov tədbirin əsas məqsədinin əqli mülkiyyətə əsaslanan innovasiyaların yaşıl gələcəkdəki rolunu göstərmək, təhlil etmək və innovasiyalara bu həyati məsələdə dəstək verməkdən ibarət olduğunu söyləyib: "Kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq, insan cəmiyyəti "yaşıl" gələcək yaratmağa qadirdir. Müasir dünyada yaşıl innovasiya, yaşıl texnologiya, yaşıl patent, yaşıl enerji kimi anlayışlar aktual mövzulardır. Təsadüfi deyil ki, Qlobal İnnovasiya İndeksi üzrə hesabatlarda innovasiyaların enerji mənbəyi kimi vacib rolu vurğulanır.

İqlim problematikasında təbiət və zəkanın maraqları toqquşmayan, ziddiyyətli olmayan mövqedən irəli gələn yeni ekoloji düşüncə və şüur durur. Bu, ilk növbədə, akademik Nikita Moiseyevin dediyi kimi, "ekoloji imperativ"dir. Yəni, sadəcə olaraq təbiət qanunları ilə hesablaşmağın obyektiv zəruriliyi ilə yanaşı, təbiət tərəfindən irəli sürülən "texniki şərtlər"i də nəzərə almaq vacibliyidir. Bu cür yanaşma texnokratik yanaşmaya əks olan, ilk növbədə insan ölçüsü olan yanaşmadır".



### Enerji keçidi indeksində bir sıra ölkələri üstələyirik

K.İmanov qeyd edib ki, hələ 20 il əvvəl Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı qəbul edilib: "O zaman Azərbaycan öz enerji ehtiyaclarını təmin etmişdi, hətta neft və qaz ixracatçısı kimi tanınmış dövlət idi. Təsdiq olunan dövlət proqramı məcburi deyil, düşünülmüş, gələcəyə yönələn atılmış addım idi. 2023-cü ilin Dünya İqtisadi Forumunun hesabatına əsasən, 120 ölkəyə aid enerji keçidi indeksləri müəyyən edilib. Azərbaycanın indeksi 62-yə bərabərdir və dünya reytinqində 32-ci yeri tutur. Azərbaycan eyni zamanda, bir sıra inkişaf etmiş ölkələri üstələyir. Bu sıraya o cümlədən G7, Avropa İttifaqına və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına üzv ölkələr (məsələn, Litva, Yunanıstan, İtaliya, Polşa, Belçika, Slovakiya, Çexiya, Bolqarıstan) daxildir".



### Yaşıl patentlərin sayı 9 ayda 30-a çatıb

Agentlik rəhbəri bildirib ki, yaşıl patentlərin artımı da nəzərə çarpır və onların sayı 2024-cü ilin 9 ayında 30-a çatdırılıb: "Bunların (114 ədəd) patentlərin ümumi sayına görə nisbəti (1464 ədəd) 7,8 faiz təşkil edir.

Göründüyü kimi, yaşıl patentlərə diqqət yetirilir, bunların ümumi saya nisbət faizi daha da üstündür (7,8 faizə qarşı 8,9 faiz). Lakin yenə də diqqət yaşıl patentlərin artırılmasına yönəldilməlidir".

### Yaşıl gələcəyi quranların ilk sıralarında ixtiraçılar var

K.İmanovun sözlərinə görə, yaşıl gələcəyi arzulayan bəşər cəmiyyətini quranların ilk sıralarında ixtiraçılar və müəlliflər durur: "Patent sistemi innovasiyaları və iqtisadi texnologiyaların yayılmasını dəstəkləyir, yaradıcı müəllif təfəkkürü və sənaye nümunələrinin qorunması mexanizmləri isə faydalı, cəlbedici və səmərəli məhsulların yaradılmasında resurslardan optimal istifadə olunmasına kömək edir. Əmtəə nişanlarının və digər fərqləndirici nişanların qorunması sistemi müəssisələrin artmasına təsir göstərir və iqtisadiyyatın inkişafını dəstəkləyir, coğrafi göstəricilər ehtiyatların dayanıqlı istehlakına yardım edir, seleksiya hüquqları isə daha davamlı bitki sortlarının yetişdirilməsinə kömək edir və bununla da ərzaq təhlükəsizliyinə təsir göstərir".

### Alimlərin rolunun artırılması vacibdir

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, dünyada baş verən münaqişələrin əksəriyyətinin mərkəzində enerji resursları durur. Burada idarəetmə amili də vacib rol oynayır: "COP29-un Azərbaycanda keçirilməsi ölkəmizdə idarəetmə metodlarının dünyaya çatdırılması baxımından da əhəmiyyətlidir. Həmçinin ətraf mühitin mühafizəsində, iqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərində alimlərin rolunun artırılması vacibdir. Bu sahədə elm və təhsil müəssisələrinin üzərinə mühüm işlər düşür".

### Fundamental hüquqların təmini...

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib ki, əqli mülkiyyət hüquqlarının qorunması bir sıra fundamental hüquqların təmininə də imkan yaradır. O, Əqli Mülkiyyət Agentliyi ilə Ombudsman Aparatının əməkdaşlığının daha effektiv şəkildə davam edəcəyini vurğulayıb.

Ombudsman çıxışında iqlim dəyişikliyinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacibliyini də qeyd edib. S.Əliyeva Azərbaycanın COP29-a ev sahibliyi etməsinin bu baxımdan böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

### Milli iqtisadiyyatın hərəkətverici qüvvəsi

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, son illər dünyanın əksər inkişaf etmiş ölkələrinin iqtisadiyyatında köklü dəyişikliklər baş verib: "Əqli mülkiyyət milli iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilib. Əqli mülkiyyət iqlim dəyişikliklərinin təsirini azalda biləcək bir çox texnologiyalar təklif edir".

F.Qurbanov elmi müəssisələrdə edilən ixtiralardan danışıb, gələcəkdə universitetlərdə araşdırmaların gücləndirilməsinin vacibliyini qeyd edib. O, ekoloji mədəniyyətin qorunmasında kadrların hazırlanması üçün imkanlar olduğunu söyləyib.

Nazir müavini iqlim dəyişikliyinin təsirləri ilə mübarizədə ekoloji cəhətdən təmiz texnologiyaların təşviqinin və texnologiyaların sürətli yayılmasının vacibliyini diqqətə çatdırıb. Nazir müavinin sözlərinə görə, əqli mülkiyyət ekosistemin müxtəlif subyektləri arasında qarşılıqlı əlaqələr təmin olunmalıdır. Elm və Təhsil Nazirliyi də bu sahədə fəaliyyətini gücləndirəcək.

***Yeganə BAYRAMOVA***

---

# Qlobal bazarlarda ucuzlaşma

## Dünya Bankı qlobal inflyasiya proqnozunu aşağı salıb

Dünya Bankı (DB) qlobal əmtəə bazarlarındakı vəziyyətə dair yeni proqnozlarını açıqlayıb. Bankın bu günlərdə dərc edilmiş hesabatında qeyd edilir ki, müxtəlif coğrafiyalarda baş verən müharibələr və Yaxın Şərqdə davam edən münaqişələr dünya enerji bazarlarında neft tariflərini tez-tez dəyişdirir. Münaqişələrin gərginləşməsi bir sıra təchizatçıların yanacaq tədarükü zəncirini pozur ki, bu da yanacağı bahalaşdırır. Ancaq sabitlik mühitində neft qiymətlərində əhəmiyyətli dəyişkənlik, yəni ucuzlaşma baş verir. Bu ssenariyə əsasən, münaqişələrin dərinləşmədiyi halda "Brent" markalı neftin orta illik qiymətinin 2024-cü ilin sonunda 80 dollar, 2025-ci ildə 73 dollar səviyyəsində qalacağı ehtimal olunur.




Enerji analitiklərinin fikrincə, OPEC+ üzvü olmayan bir sıra ölkələr neft hasilatını çoxaltmağı planlaşdırır ki, bu, bazara daha çox neft tədarükü fonunda yanacağın orta qiymət sabitliyini qoruyub saxlayacaq. Bununla yanaşı, bazarda mövcud olan xeyli həcmdə ehtiyatların istifadə olunması kəskin neft tələbi riskini də azaldacaq. Həmçinin, qlobal bazarlarda yeni sənaye texnologiyalarına keçidin artması, sənayenin strukturunda ənənəvi enerji və yanacaq istehlakının payının azalması da yanacaq təchizatının izafi yüksəlməsinin qarşısını alacaq. Təkcə, Çində elektrikli nəqliyyat vasitələrinin və mayeləşdirilmiş təbii qazla işləyən yük maşınlarının satışının artması neftə tələbatı getdikcə azaldır, bu tendensiya gələcəkdə istehlakın daha da azalmasına gətirib çıxara bilər.

DB-nin analitikləri hesab edirlər ki, enerji istehlakındakı bu faktorlar mal və xidmətlərin dəyər və qiymət zəncirinin formalaşmasına da təsir edəcək. Belə ki, əmtəə tədarükündə və xammal komponentlərində yer alan enerji xərclərinin 2025-ci ildə 6 faiz, 2026-cı ildə isə daha 2 faiz azalacağı gözlənilir ki, bu da nəticə etibarilə maya dəyərini də aşağı salacaq. Bu ehtimallara əsasən, qlobal əmtəə qiymətləri 2024-2026-cı illərdə 10 faiz ucuzlaşacaq. Əmtəələrin ucuzlaşması isə qlobal inflyasiyanın da enişinə yol açacaq, DB-nin yenilənmiş proqnozlarına əsasən, istehlak qiymətləri indeksi cari ildə 2,9 faiz təşkil edəcək. Halbuki 3 ay əvvəl dərc edilmiş hesabatda bu rəqəm 3,5 faiz müəyyənləşmişdi. Dəyərləndirmələrə görə, mal qrupları içərisində ərzağın daha çox ucuzlaşması ehtimal olunur. Belə ki, ərzaq mallarının 2024-cü ildə 9 faiz, 2025-ci ildə isə daha 4 faiz ucuzlaşması gözlənilir.

### Beynəlxalq Valyuta Fondunun nikbin proqnozları...

Qeyd edək ki, bir müddət əvvəl Beynəlxalq Valyuta Fondu (BVF) da qlobal bazarlarla bağlı ssenarilərini beynəlxalq ictimaiyyətə təqdim edib. Fond tərəfindən iyul ayında açıqlanmış hesabata əsasən, 2024-cü ilin birinci yarımilliyində Rusiya ilə Ukrayna arasında və Yaxın Şərq regionunda münaqişənin davam etməsi fonunda geosiyasi gərginliklərə və geoiqtisadi fraqmentasiyaya baxmayaraq, qlobal iqtisadiyyatda stabilləşmə müşahidə edilib. Avrozonada və əksər inkişaf etmiş regionlarda iqtisadi artım templəri yavaşısa da inflyasiya təhdidi artmayıb, dünyanın aparıcı ölkələrində qiymət indeksi gözləniləndən daha aşağı hədlərdə olub.

BVF-nin hesabatına əsasən, qlobal inflyasiya cari ildə 5 faiz səviyyəsində gözlənilir ki, bu DB-nin proqnozundan 2 faizdən də çoxdur. Ancaq növbəti ildə inflyasiyanın 1 faiz azalaraq 4 faizə, 2026-cı ildə isə 3,5-4 faizə enəcəyi proqnozlaşdırılır. Hesabata əsasən, xidmət sektorundakı qiymətlərin sürətli artımı, habelə əmtəə qiymətlərindəki azalma tempinin nisbətən səngiməsi qlobal inflyasiyanın azalma sürətini zəiflədir.

Sözsüz ki, qlobal miqyasda baş verən proseslərin, ələlxüsus da mal və əmtəələrin ucuzlaşmasının Azərbaycana da ciddi təsirləri mümkündür. Ölkəmizdə inflyasiya səbətində qlobal faktor əsas paya malikdir, inflyasiya səviyyəsi daha çox idxaldan formalaşır. Belə ki, ölkəmizdə inflyasiyanın təxminən 30 faizi yerli istehsal və daxili tələbdən, qalan 70 faizi isə idxaldan yaranır. Bu o deməkdir ki, hazırda qeydə alınmış 1,3 faizlik inflyasiyanın təxminən 0,8 faizi idxala bağlıdır. Bunun da başlıca səbəbi müxtəlif əmtəələrin, xüsusilə də ərzaq mallarının, xüsusilə də yerli qida istehsalında tələb olunan xammal komponentlərinin idxalının xaricdən gətirilməsidir.



### İkirəqəmli inflyasiya dövrü arxada qaldı...

Son 3-4 ildə, 2020-2023-cü illərdə Azərbaycanda inflyasiyanın artaraq ikirəqəmli səviyyəyə çıxmasının səbəbi də həmin idxal məhsulları və xammallarının baha olması ilə bağlı olub. Dünya bazarında bir çox aqrar və sənaye mallarının qiymətləri 2023-cü ilə qədər bahalaşdığından bu, ölkəmizdə ciddi təsirlərini göstərirdi, eləcə də daşınma-nəqliyyat xərclərinin bu dövrlərdə yüksəlməzi qiymət portfelində təsirsiz ötüşmürdü.

2023-cü ilin ikinci yarısından sonra dünya bazarında qlobal xərclərin azalması Azərbaycanda idxal inflyasiyasını da yumşaldaraq ilin sonunda birrəqəmli həddə düşməsinə səbəb oldu. Cari ilin ötən aylarında isə qiymət indeksi 1-2 faiz civarında qalmaqdadır.

Ancaq bu o demək deyil ki, Azərbaycanda inflyasiyanın büsbütün azalması dünya bazarındakı mal və xidmətlərin ucuzalaşması ilə bağlı olub. Burada 2023-cü ildə hökumətin həyata keçirdiyi antiinflyasiya siyasətinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərini də xüsusi vurğulamaq lazımdır. Nazirlər Kabinetinin 15 iyul 2023-cü il tarixli sərəncamı ilə ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərinin nəzarətdə saxlanılması, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə zəruri tədbirlər görülüb. Belə ki, kənd təsərrüfatı və ərzaq məhsulları ilə əlaqəli sahələr üzrə gömrük rüsumları, vergi güzəştlərinin verilməsi, bir sıra xərclərin optimallaşdırılması, həmçinin monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi istiqamətində tədbirlər görülüb ki, bu da 2023cü illə yanaşı, 2024-cü ildə də öz əhəmiyyətli səmərələrini verib. Qiymət bazarlarında ən önəmli nüanslardan biri olan süni qiymət artımlarının qarşısının alınması da yaddan çıxmamalıdır. Bu baxımdan 2024-cü ilin iyul ayında qüvvəyə minən Rəqabət Məcəlləsi də süni qiymət artımlarının qarşısının alınmasında mühüm rol oynayıb.

### Azərbaycanda inflyasiya azalmağa doğru gedəcək

Beləliklə, qlobal bazarlarda əmtəələrin ucuzlaşması dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olan Azərbaycana da təsir edəcək və inflyasiyanın azalması gözləniləndir. Beynəlxalq iqtisadi institutların proqnozlarına əsasən, Azərbaycanda orta illik inflyasiya 2025-ci ildə 3,9 faiz, növbəti illərdə isə 4 faiz olacaq. Dünya Bankının proqnozlarına görə, ölkəmizdə istehlak qiyməti indeksi 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz təşkil edəcək. "Standard & Poor's" beynəlxalq reytinq agentliyinin iyun ayında açıqladığı yeni sənəddə Azərbaycanda 2025-2027-ci illərdə isə orta illik inflyasiya gözləntilərinin 3-4,2 faiz olacağı bildirilir.

Azərbaycan hökumətinin ssenarisinə əsasən, inflyasiya 2025-ci ildə 4,6 faiz, 2026-cı ildə 4 faiz, 2027-ci ildə 3,8 faiz çərçivəsində müəyyənləşib. Bütün bunlara rəğmən, hökumət 2025-ci ildə inflyasiyanı qlobal bazar amilləri ilə yanaşı, yenə də monetar alətlərlə nizamlamaq, mübarizə tədbirlərini gələn ildə də prioritet kimi diqqətdə saxlayacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumları bu prosesə cəlb edəcək.

***E.CƏFƏRLİ***

# Türkiyə Qarabağda sərmayə fəallığını artırır

Türkiyə kapitallı “Birlik Deri” MMC Ağdam Sənaye Parkında rezidentlik hüququ alaraq xarici investor statusunda fəaliyyətə başlayıb. Şirkət ilk sərmayə proqramı çərçivəsində sənaye parkına 20,8 milyon manat investisiya yatıracaq. Dəri və dəri məmulatları istehsal etməyi planlaşdıran “Birlik Deri” MMC İtaliya, Türkiyə, Cənubi Koreya kimi qabaqcıl ölkələrin texnologiyalarına əsaslanan sənaye bölməsi yaratmaqla, müəssisədə istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracını da nəzərdə tutur. Layihə çərçivəsində 250-dən çox yeni iş yeri yaradılması hədəflənib ki, onların böyük qismi yerli sakinlər olacaq.

## “DOST Aqropark”la təməli qoyulan investisiya dostluğu...

Türkiyəli investorlar azad ərazilərdə 3 ildən artıqdır ki, müxtəlif sektorlarda təmsil olunur. Zəngilanda iki ölkənin birgə sərmayə layihəsi olan “DOST Aqropark” bölgənin iqtisadi potensialından istifadə olunmasında ilk təməllərdən biri olmaqla, böyük bir aqrar-sənaye şəbəkəsinin formalaşmasına və digər investorların cəlb edilməsinə zəmin yaradıb. Burada ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub və layihə Türkiyənin iş adamlarının azad edilmiş torpaqlarda digər layihələrə də marağını artırıb. Türkiyənin mədənçıxarma şirkətləri də 2 ildən artıqdır ki, bu bölgədə fəaliyyət göstərir. Qardaş ölkənin “Cengiz Holding” qrupuna daxil olan “Eti Bakır A.Ş.” və “Artvin Maden A.Ş.” şirkətləri ilə Azərbaycan hökuməti arasında işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisində yerləşən “Qaşqaçay”, “Elbəydaş” və “Ağduzdağ” filiz yataqlarının işlənməsinə dair imzalanmış müqavilələr əsasında investisiya planı üzrə işləri davam etdirir.

## “Demirören Holding”in “yaşıl enerji” layihələri...

Bir neçə ay əvvəl Türkiyənin “Demirören Holding”-”Arges Enerji Teal” şirkətlərinin birgə investisiya layihəsi olan Malıbəyli kiçik su elektrik stansiyasının (KSES) təməli qoyulub. Həkəri çayının qolu olan Zabux çayının üzərində inşa edilən KSEK qardaş ölkənin ilk “yaşıl maliyyə” sazişidir. Bu, həm də türk investorların Qarabağ və Şərqi-Zəngəzurda “yaşıl enerji”yə özəl sərmayə proqramlarının başlanğıcıdır. Bu stansiya “sıfır emissiya” zonası elan edilmiş azad ərazilərin ən işlək hidrogen qovşaqlarından biri olacaq. Növbəti mərhələdə Türkiyənin investorları tərəfindən digər sərmayə layihələrinin icrası da nəzərdə tutulub. İnvestisiya proqramına əsasən, Laçın rayonunda “Qalaça-1”, “Qalaça-2” və “Minkənd”, Kəlbəcər rayonunda isə “Tərtər-1” KSES-in tikilməsi planlaşdırılır. Azərbaycan və Türkiyənin birgə investisiya iradəsinin nümunəsi olan bu “yaşıl layihələr”in digər prioritetləri Həkəri və Tərtər çayları üzərindəki bütün mövcud hidrogen potensiallarının istismara səfərbər edilməsidir. Həmin çayların üzərində 5 kiçik su elektrik stansiyasının inşası da yaxın günlərdə başlayacaq və SES-lərin 2025-ci ildə tam istifadəyə verilməsi nəzərdə tutulur.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan böyük quruculuq işlərində qardaş Türkiyə 20-dən çox şirkətlə 50-yə yaxın layihə, 10-a yaxın investorla 5-dən çox sərmayə proqramı icra edir. Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) hazırladığı yeni sərmayə planına əsasən, Türkiyə şirkətləri bu bölgədə qida istehsalı və emalı sahələrinə, yeni zavodların və istehsalat sahələrinin qurulmasına, xidmət sektorlarına investisiya yatırmağı qiymətləndirir. Qarabağda enerji təchizatının bərpası və yeni enerji infrastrukturunun qurulması, günəş və külək enerjisi stansiyalarının inşası, aqrar-sənaye komplekslərinin, sənaye parklarının və istehsalat mərkəzlərinin yaradılması yüksək texnoloji parkların təşkili də sərmayə portfelində əsas yer tutur. Eləcə də, Türkiyə şirkətlərinin tekstil fabriklərinin qurulması üçün 50-100 milyon dollar investisiya proqramının icrası nəzərdə tutulur.









Qeyd edək ki, 2024-cü ilin iyun ayında “Azərbaycan Respublikası

## 5 illik hədəf: İnvestisiyaları 16 milyarddan 30 milyard dollara yüksəltmək...

Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş” qüvvəyə minib və sənədə əsasən, iki qardaş ölkə arasında qarşılıqlı ticarətin və xarici investisiyaların həcminin artırılması, birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığın daha da gücləndirilməsi nəzərdə tutulur. Saziş, həmçinin, Türkiyə şirkətlərinin azad ərazilərdə investisiya güzəştlərindən və stimullaşdırıcı iqtisadi alətlərdən istifadəsinə də geniş zəmin yaradır. Bu baxımdan türk sərmayəçilərinin Qarabağ və Şərqi-Zəngəzurda investisiya qoyuluşlarına marağı daha da böyüyür və investisiya gündəliyinin yeni ünvanı kimi azad əraziləri ön plana çəkir.

Hazırda Türkiyənin Azərbaycana yatırdığı investisiyaların həcmi 16 milyard dollar təşkil edir. Yaxın 5 ildə qarşılıqlı sərmayə qoyuluşlarının 2 dəfə artırılması, Türkiyə şirkətlərinin Azərbaycanda yatırdığı investisiyaların həcminin 25-30 milyard dollara çatacağı gözlənilir. Yeni investisiyaların əsas sahələri azad ərazilərdəki aqrar-sənaye, turizm, “yaşıl enerji”, mədənçıxarma və yüngül sənaye sektorları olacaq.

Beləliklə, qardaş ölkənin xüsusi önəm verdiyi yüksək texnologiyalar sektorunun əsas ünvanlarından biri Ağdam Sənaye Parkı olacaq. Bu isə parkın yaxın illərdə müxtəlif sənaye çeşidləri üzrə ixtisaslaşmış mərkəzə çevrilməsinə səbəb olacaq, eyni zamanda, digər xarici investorların da axınına yol açacaq. Qeyd edək ki, Ağdam Sənaye Parkına digər ölkələrin investorlarının da marağı böyükdür. Belarusa məxsus aqrar-sənaye korporasiyaları bu bölgədə çalışmaq üçün öz investisiya planlarını açıqlayıb və hökumət tərəfindən dəstəklənib. 2024-cü ilin iyun ayında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Belarus Ticarət və Sənaye Palatası arasında imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumuna əsasən, birgə

## Türk sərmayəçiləri digər xarici investorlar üçün də cığır açır...

investisiya layihələrinin reallaşdırılması nəzərdə tutulur. Bir neçə gün əvvəl Minskdə səfərdə olan Azərbaycanın Baş naziri Əli Əsədovun həmkarı Roman Qolovçenko ilə görüşü çərçivəsində isə Ağdamda Aqroşəhərciyin yaradılmasına dair müqavilə imzalanıb. Bu, əməkdaşlığın ilk təməlidir və növbəti mərhələdə belaruslu sənayeçi iş adamlarının Ağdam Sənaye Parkının rezidenti olması istisna edilmir.

*ELBRUS CƏFƏRLİ*

# Maskası yırtıldı...
## Fransadan növbəti sabotaj cəhdi
### Paris sülhü hədəfə alır

Cənubi Qafqaza sülh ritorikası hakim kəsildikcə, bəzi qurum və dövlətlər narahatlıqlarını açıq büruzə verirlər. Bölgədə sabit və təhlükəsiz gələcəyin qurulması üçün hədəflənən sülh prosesi həmin dairə və dövlətlərin maraqları ilə üst-üstə düşmür - beləliklə də, onlar “anti-sülh” proqramlarını daha da “təkmilləşdirmək” və “tezləşdirmək” məcburiyyətində qalırlar.

Məsələn, heç bir siyasi-ictimai mahiyyət daşımayan, sadəcə olaraq regionda gedən proseslərə müdaxilə üçün Ermənistana yerləşdirilən Aİ-nin “müşahidə missiyası”nın əsl “fəaliyyət mexanizmləri” hər kəsə bəllidir. Bu qrup monitorinq missiyası mahiyyətindən daha çox Ermənistanı sülhdən uzaqlaşdırmaq üçün təzyiq vasitəsi kimi istifadə olunur. Xüsusilə, bu ilin əvvəlindən etibarən sülhlə bağlı bəzi pozitiv addımların atılması qrupun “iş prinsipi”nə mühüm ştrixlər “əlavə edib”. Onlar ümumilikdə prosesə mane olmaq üçün fərqli metodlardan istifadə etməyə başlayıblar - “Durbin diplomatiyası”nı özünün ən vacib hərəkət mexanizminə “çevirdiyini” düşünən missiya ara-sıra xarici ölkələrin Ermənis-

## Qərb Ermənistanı sülhdən yayındırmaqla öz maraqlarını təmin etməyə çalışır

tandakı səfirlərini, İrəvanda qonaq olan amma sülh məsələsinə ən minimum dəxli olmayan xarici nümayəndələri şərti sərhədə gətirir, onların Azərbaycan torpaqlarına “boylanan yerdə” şəkillərini çəkib paylaşır. Bunu isə həm də özlərinin əsas missiyası sayırlar.

## “Missionerlər” yenidən iş başında...

Bu dəfə də şərti sərhəddə analoji hal yaşanmaqdadır. Belə ki, oktyabr ayının əvvəlindən Avropa İttifaqının “müşahidəçi”lərinin Azərbaycanla sərhəddə baş çəkməsi hallarının artdığı bildirilir. Bu yaxınlarda isə daha bir qrup Zəngilanla sərhəddə yerləşən Ermənistanın Nerkin Hand kəndi yaxınlığına gətirilib. “Report”un əldə etdiyi kadrlardan açıq görünür ki, indiyədək “müşahidəçilər” Avropa İttifaqına məxsus avtomobillərdə hərəkət etdiyi halda, həmin gün sərhədə gələn 3 avtomobildən birinin üzərində Fransa bayrağı dalğalanıb. Sərhəd kəndə gələn avtomobillərdə 6 nəfər mülki geyimli şəxs olub. Bu şəxslərin Fransanın kəşfiyyat orqanlarının əməkdaşları olduğu da istisna deyil. Bu isə onu deməyə əsas verir ki, Fransa artıq Aİ adı altında maskalanmadan kəşfiyyat orqanlarının əməkdaşlarını açıq şəkildə öz bayrağı altında Azərbaycanla sərhəddə yerləşdirməyə başlayıb. Beləliklə, Ermənistanı sülhdən yayındıran ən əsas xarici qüvvə sayılan Fransanın növbəti dəfə müharibə axtarışında olması, yeni eskalasiyalar arzulaması bir daha sübut olunur.

Qeyd edək ki, bu, son günlərdə ilk hadisə deyil - qısa müddət öncə də şərti dövlət sərhədimizin yaxınlığında 8 nəfər Aİ missiyasının üzvünə və erməni hərbçilərinə təsadüf edilmişdi. Həmin şəxslər cihazları ilə ərazilərimizi müşahidə etmişdilər. Budəfəki “ziyarət” isə daha açıq fonda baş tutur - artıq Fransa özünü “missiya nümayəndəsi” donu altında gizlətmir və açıq-aşkar kimliyini “biruzə verir”, bayrağını maşının üzərində “dalğalandırır”.

Bunun da bir sıra səbəbləri var:

- Paris də daxil olmaqla bütövlükdə Qərb son aylarda Ermənistanla Azərbaycan arasında gedən danışıqlar və sülh layihəsinin mübadiləsi prosesindən izolə edilib;

- İstanbulda baş tutan “3+3” formatında münasibətlərin normallaşması prosesinin konkret olaraq regiondaxili məsələ kimi həll edilməsinin yeganə yol olması demək olar ki, növbəti dəfə təsdiqləndi;

- Kazanda baş tutan BRICS sammiti Qərbin qlobal sferada açıq məğlubiyyətinin nümayişi idi. Azərbaycanla yanaşı Ermənistanın da bu tədbirə qa-



## Məğlubiyyəti ifadə edən “mesajlar”...

tılmasını isə Fransa özü üçün “xəbərdarlıq” sayırdı.

Beləliklə, Fransa “oyundan kənar” vəziyyətə düşdüyünü görür və dərk edir. Rəsmi Paris qeyri-konstruktiv mövqeyini daha da “kəskinləşdirir”, sülh əvəzinə bölgədə yeni eskalasiyalar üçün verdiyi “çabalar”ı artırır. Eyni zamanda, verilən mesajlar fərqli ünvanlara hədəflənir:

- Fransa bölgəyə rahatlıq vermək fikrində olmadığını “vurğulayır”;

- Ermənistana “xəbərdarlıq” edir;

- Yeni iqtisadi nizamın qurulmasında vacib element sayılan Cənubi Qafqazdan asan şəkildə əl çəkməyəcəyini “bildirir”.

## Ermənistan nə etməli idi, nə etdi?

Fransa anlayır ki, təkcə silahlandırmaqla işi bitmiş saymaq olmaz - situasiya təsdiqləyir ki, Ermənistan bu silahların qarşılığında heç də Qərbin gözlədiyi nəticələri “vermir”. Çünki Fransa axır zamanlarda Ermənistanı ardıcıl şəkildə silahlandırmaqla daha fərqli planlar qurmuşdu. Paris İrəvana dəyəri milyon dollarla ölçülən və “Arquus” qrupunun istehsalı olan “Bastion” tipli zirehli texnika, MISTRAL 3 zenit-raket komplekslərini və başqa yeni silahlar ötürürdü. Yeni mərhələdə - 2024-cü ildən isə artıq daha öldürücü silahların ixracına başlanılmışdı. Məsələn, Ermənistanla Fransa arasında imzalanan müqaviləyə əsasən İrəvana “Caesar” haubitsaları verilib. Demək ki, Fransa bu silahların qarşılığında Cənubi Qafqazda yeni eskalasiyalar yaratmaq, yeni təhdidlər formalaşdırmaq niyyətindədir. Bunun üçün isə ilk növbədə şərti sərhəd ərazilərində aranı qarışdırmaq - atəşkəsi pozmaq gərəkir...

## Bumeranq effekti...

Bəli, dünənə qədər açıq şəkildə Ermənistanı silahlandıran Paris bu yolla prosesə təsir göstərmək istəsə də alınmırdı - hətta bu kimi “xəbərdarlıqlar” bumeranq effekti yaradıb. Çünki Azərbaycan Fransanın təzyiqlərindən və ya təhdidlərindən heç bir zaman çəkinməyib. Ötən illər ərzində dəfələrlə beynəlxalq meydanlarda Fransanı açıq məğlub edən, Parisin diqtəsi ilə işləyən platformalarla belə onu siyasi nokauta salan Azərbaycan bütün sferalarda üstünlüyünü ortaya qoya bildi və sülhün Ermənistan üçün çıxış yolu olduğunu bütün detalları ilə qarşı tərəfə izah etdi. Fransa isə çəkinir ki, Azərbaycanın regionun gələcək inkişafı ilə bağlı hazırladığı strateji yol xəritəsi Ermənistana da təsir göstərəcək və İrəvan Parisin “zəncirlərindən” çıxıb sülhə yaxınlaşacaq.

Nəticə etibarı ilə də, indiki halda “durbinçi missiya” pərdəsi altında Fransanın əsas fəaliyyəti sülhü hədəfə almaq, mövcud situasiyanı sabotaj etməkdir. Paris yaxşı anlayır ki, Cənubi Qafqazda siyasi-hərbi sabitliyin gücləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi dayanıqlı sülhün yaranması prosesi ilə birbaşa əlaqəlidir. COP29 öncəsi müzakirələrin intensivləşməsi fonunda Ermənistanın sülh müqaviləsini imzalama ehtimalı böyüyür - bu isə bölgədəki situasiyaya köklü şəkildə təsir göstərəcək. Eyni zamanda, sülh prosesinin məntiqi nəticə ilə yekunlaşması Fransa başda olmaqla bölgədəki destruktiv maraqların tam şəkildə iflasa uğramasına yol açacaq. Beləliklə, sülh bir mənada regionun yeni inkişaf mərhələsini formalaşdırmaqla yanaşı, kənar təsirlərin də

## Ermənistan yenə də sülhdən yayınsa...

aradan qaldırılmasına şərait yaradacaq. Bu baxımdan, Fransa yenidən “hərəkətə” gəlir.

Sülhdən yayınmağa itirən yenə də Ermənistan olacaq. Fərqli oyunlara aldanıb, Fransanın yedəyinə çevrilib korporativ maraqların arxasına düşəcəyi təqdirdə İrəvan daha ağır “imtahanlarla” üz-üzə qalmalı olacaq - daha dərin sosial çətinliklərə, iqtisadi böhranlara sürüklənəcək. Ondan istifadə edən Fransa kimi dövlətlər, Aİ kimi öz marağına fokuslanan mərkəzlər üçün isə Ermənistanın mənafeyi heç bir məna kəsb etmir...

*P.İSMAYILOV*

# Qərbin Gürcüstan planı fiaskoya uğrayır...

**Qonşu və dost Gürcüstanda oktyabrın 26-da keçirilən növbəti parlament seçkiləri artıq geridə qalsa da, ölkədə seçki ajiotajı hələ də bitməyib. Bunun əsas səbəbi isə ABŞ başda olmaqla kollektiv Qərbin müxalifəti "Exit-poll"un müəyyənləşdirdiyi və aidiyyatı qurumların bəyan etdikləri nəticələri tanımamağa təhrik etməsidir. Qərbin seçkilərdən fürsət kimi istifadə etməklə Gürcüstanı qarşıdurmalara çəkməsi, bu ssenaridə müxalifəti və bəzi hakimiyyət mənsublarını alət kimi istifadə etməsi isə təsadüfi deyil. Bunun kökündə ABŞ-nin və Avropa İttifaqının (Aİ) geostrateji maraqları dayanır. Kollektiv Qərb Cənubi Qafqazda möhkəmlənmək, burada Rusiyaya qarşı ikinci cəbhə açmaq üçün plasdarm dövlətlər axtarışındadır. Bu məqsədlə məmnuniyyətlə Qərbə qucaq açan Ermənistanın ardınca hədəf kimi Gürcüstan seçilib. Burada da marionet bir hakimiyyət qurulmasına cəhdlər göstərilir. Rəsmi Tbilisi isə okeanın o tayından, Avropa paytaxtlarından gələn təzyiqlərə boyun əymir və milli maraqlardan çıxış edir.**

**Belə təzadlı mənzərə fonunda Gürcüstanın da Ukrayna kimi qlobal Qərblə qlobal Şərq arasında qarşıdurmalar poliqonuna çevrilmək ehtimalları artır. Beləliklə, qonşu və dost ölkənin ətrafında və daxilində nə baş verir?**

## Bir-birini təkzib edən dəyərləndirmələr: Qərb açıq təhdidə və təzyiqə başlayıb

Əvvəlcə onu xüsusi vurğulamaq lazımdır ki, Gürcüstan hakimiyyəti parlament seçkilərinin demokratik keçməsini, siyasi partiyaların proseslərə qatılmasını təmin etməkdən ötrü bütün mümkün tədbirləri görüb. Seçkiqabağı dönəmdə namizədlərin qeydə alınmalarına və təbliğatlarını aparmalarına lazımi şərait yaradılıb. Gürcüstanın Mərkəzi Seçki Komissiyasının (MSK) məlumatına əsasən, seçkilərdə 26 siyasi partiya, ictimai hərəkat və birlik 150 deputat yeri uğrunda mübarizə aparıb. Milli qanunvericiliyə əsasən, əvvəlcədən müəyyən olunmuş 5 faizlik baryeri keçən partiya parlamentdə deputat mandatı qazanır. Verilən məlumatlara görə indiyədək seçki məntəqələrinin 99,97 faizinin göstəriciləri emal olunub və hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası (sədr İrakli Qaribaşvili) 53,93 faiz səs qazanıb.Qeyd edək ki, bu partiya seçkilərə ən çox namizədlə (150 nəfər) qatılıb. Həmçinin digər dörd partiya da 5 faizlik baryeri aşmaqla parlamentdə təmsilçilik hüququ qazanıb. Bütövlükdə müxalifət birlikdə 37 faizdən bir qədər çox səs toplayıb. Beləliklə də, bundan əvvəlki seçkilərdə olduğu kimi "Gürcü arzusu" və "Xalqın gücü" bloku parlamentdə 90, müxalifət isə 60 yer əldə edib. Gürcüstanın Mərkəzi Seçki Komissiyası parlament seçkilərinin yekun nəticələrini noyabrın 21-də açıqlayacaq.

Səsvermədə seçici fəallığı 58,94 faiz olub. Qeyd edək ki, səsvermə prosesini 64 beynəlxalq və 102 yerli təşkilatın nümayəndələri müşahidə ediblər. Parlament seçkilərində ilk dəfə elektron səsvermə sistemi də tətbiq edilib.

Onu da vurğulayaq ki, Gürcüstanda keçirilən parlament seçkiləri ilə əlaqədar "İmedi" televiziya kanalının sifarişi ilə "Qorbi" şirkəti "exit-poll" keçirib. MSK-nın və "Exit-poll"un ilkin nəticələri kiçik fərqlərlə üst-üstə düşür.

Sadalanan faktlardan və müşahidəçilərin dəyərləndirmələrindən göründüyü kimi, Gürcüstan hakimiyyəti kiçik nöqsanlar nəzərə alınmasa, tam şəffaf seçkilər keçirməyə nail olub. Bununla belə, ayrı-ayrı Qərb dövlətləri və təsisatları Gürcüstanda keçirilən seçkilərlə bağı qərəzli rəylər ifadə edirlər. Məsələ burasındadır ki, bir sıra hallarda Qərbdən gələn dəyərləndirmələr bir-birini təkzib edir. Əslində, Qərb seçkilərdə pozuntu və qüsur aşkar edə bilməyib. Hətta BDİPÇ/ATƏT, ATƏT PA, AŞPA, NATO PA və Avropa Parlamentinin birgə missiyası seçkilərinin legitimliyini tanıyıb. Bu onların hesabatlarında da əksini tapıb.

Bununla belə, Qərb dövlətləri rəsmi Tbilisiyə qarşı açıq şəkildə təhdid və təzyiqə başlayıblar. Ən sərt dəyərləndirmələr ABŞ-dən və Brüsseldən gəlir. ABŞ və Avropa İttifaqı Gürcüstan hakimiyyətini parlament seçkiləri zamanı yol verilən hansısa qanun pozuntuları ilə bağlı araşdırma aparmağa çağırıb. Konkret faktlar isə göstərilmir, xəyali qanun pozuntularından bəhs edilir. "Beynəlxalq müşahidəçilər seçkilərin nəticələrini azad və ədalətli kimi tanımayıblar. Biz beynəlxalq normaların bütün pozuntularını pisləyirik və seçkilərlə bağlı bütün pozuntuların araşdırılması üçün beynəlxalq və yerli müşahidəçilərin çağırışlarına qoşuluruq", - deyə ABŞ-nin dövlət katibi Antoni Blinken yaydığı bəyanatında bildirib. ABŞ rəsmisi qanun pozuntuları arasında "hakim partiyanın adminsitrativ resurslardan sui-istifadə etməsini, seçicilərə rüşvət verməsini və hədə-qorxu gəlməsi" kimi "faktları" sadalayıb.

Daim Vaşinqtondan fəaliyyət direktivləri alan Aİ rəsmilərinin açıqlamaları da məzmunca A.Blinkenin dəyərləndirmələrinin oxşarıdır. Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel də öz bəyanatında rəsmi Tbilisiyə qınaqlar ünvanlayaraq bildirib ki, seçki prosesində "səsvermənin məxfiliyinin pozulması" və "son qanunvericilik dəyişikliklərinin səsverməyə təsiri ilə bağlı narahatlıqlar" kimi problemlər yaşanıb. "Biz Gürcüstanın Mərkəzi Seçki Komissiyasını və digər aidiyyəti qurumları üzərinə düşən vəzifələri yerinə yetirməyə, seçki pozuntularını və bununla bağlı iddiaları operativ, şəffaf və müstəqil şəkildə araşdırıb baxmağa çağırırıq. Bu pozuntular müəyyən edilməli və aradan qaldırılmalıdır. Bu, seçki prosesinə etimadın bərpası istiqamətində zəruri addımdır",- deyə Aİ rəsmisi vurğulayıb.

ABŞ prezidenti Cozef Bayden də Gürcüstanda keçirilən seçkilərlə bağlı bəyanat yayıb. Ağ evin sahibi iddia edir ki, oktyabrın 26-da Gürcüstanda keçirilən son parlament seçkiləri çoxsaylı sənədləşdirilmiş inzibati resurs sui-istifadəsi, həmçinin seçicilərin hədə-qorxu və məcburiyyəti ilə yadda qalıb. "Gürcüstan vətəndaşlarının müstəqil beynəlxalq və yerli müşahidəçilərin azad və ədalətli adlandırmadığı bu seçkilərin keçirilməsi ilə bağlı öz fikirlərini dinc şəkildə ifadə etmək hüququ var. Biz Gürcüstan hökumətini bütün seçki pozuntularını şəffaf şəkildə araşdırmağa, toplaşmaq və ifadə azadlığını məhdudlaşdıran Xarici Təsir Aktı kimi qanunları ləğv etməyə və Gürcüstandakı bütün siyasi qüvvələrlə seçkilərin bütövlüyünü bərpa etmək üçün dərhal dialoqa başlamağa çağırırıq", - deyə ABŞ prezidentinin bəyanatında qeyd olunur.

Bütövlükdə, Gürcüstanda keçirilən seçkilərlə bağlı bəyanatların siyahısı çox uzundur. Böyük Britaniya XİN-i "seçkilərdəki mümkün pozuntuları araşdırmağa" çağırıb. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller: "Gürcüstan öz siyasi kursunu dəyişməsə, ölkəni ciddi nəticələr gözləyir" açıqlaması ilə çıxış edib.

Fransanın Avropa məsələləri üzrə naziri Benjamin Haddad Gürcüstandakı seçki prosesində "seçicilərə qarşı təzyiq, hədə-qorxu və təhdidlər" olduğunu iddia edir.

Kanada seçkilərin nəticələrinə görə Gürcüstan rəhbərliyi ilə münasibətlərinə yenidən baxmaq niyyətindədir. Heç bir fakt göstərilmədiyi halda, başda ABŞ olmaqla Qərbin proksiləri sayılan Estoniya, Litva, Latviya kimi ölkələr xalqın seçiminə kölgə salmaq üçün Gürcüstana qarşı faktiki olaraq hibrid müharibəyə başlayıblar.

Müxtəlif Avropa paytaxtlarından gələn bəyanatlar Qərbin Gürcüstan və bütövlükdə Cənubi Qafqaz siyasətinə hansı prizmalardan yanaşdığını təsdiqləyir. Bu bəyanatların məzmununa açıq şantaj və diqtə ruhu hakimdir. Belə çıxır ki, onlar ayrı-ayrı dövlətlərin mili iradələrini qəbul etmirlər. Qərbin demokratiya anlayışının gerçək mahiyyəti bundan ibarətdir. Maskalar artıq yırtılıb. Hansı dövlət onların ambisiyalarına boyun əymirsə, diktələrini qəbul etmirsə və müstəqil siyasət aparmağa çalışırsa, ona dərhal "antidemokratik" çamuru atılır, təzyiq və cəza mexanizmləri işə salınır. Son olaraq Gürcüstanın hələ seçkilərdən öncə Vaşinqtonun və Brüsselin sanksiyaları ilə hədələnməsi bunun bariz ifadəsidir.



## Kollektiv Qərb Gürcüstana niyə qəzəblidir?

Sual yaranır: Bəs Qərb Gürcüstana niyə qəzəblidir? Axı yaxın keçmişədək Vaşinqton və Brüssel Gürcüstana hərtərəfli dəstək göstərir, burada baş verənləri alqışlayırdı. Ölkəyə Avropa İttifaqına sıx inteqrasiya vədləri verilirdi və hətta Aİ üzvlüyünə namizədliklə bağlı müzakirələrə də başlanılmışdı. Nə baş verdi ki, Qərb Gürcüstana münasibətini kəskin dəyişdi?

Qərbin rəsmi Tbilisiyə artan qəzəbi cari ildə qəbul olunan "Xarici təsirin şəffaflığı haqqında" və "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı iki mühüm qanundan qaynaqlanır. Gürcüstan hakimiyyəti birinci qanunun qəbul olunmasını ölkənin milli maraqlarının qorunması zərurəti ilə əlaqələndirir. Qanunda xaricdən maliyyələşən müvafiq təsisatlara nəzarət mexanizmi nəzərdə tutulur. Bu nəzarət mexanizmi isə ilk növbədə şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədi daşıyır. Fəaliyyətlərini qanunla müəyyənləşdirilən prosedurlara uyğun qurmayan təsisatları ciddi cərimələr gözləyir. Eyni zamanda, Gürcüstan hakimiyyəti gələcəkdə vətəndaş cəmiyyəti təsisatlarının hökumətdən maliyyə alacaqlarının anonsunu edib və bu istiqamətdə müzakirələrə başlanıb. Bəhs olunan ikinci qanun isə Gürcüstan hakimiyyətinin xalqın ənənələrini, dəyərlərini və ləyaqətini qorumaq hədəfini özündə ehtiva edir.

Bəhs olunan birinci qanunun qəbul edilməsi Gürcüstan cəmiyyətinin Qərbdən asılılığının azaldılmasına hesablanan addımdır. Qərb isə bunu istəmir və qanunu başqa izahlar altında təqdim edir. Qərb o qənaətdən çıxış edir ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun Gürcüstanın siyasi oriyentasiyasını Avropadan Rusiyaya doğru dəyişmək məqsədilə qəbul olunub. Halbuki belə bir izahın əsası yoxdur. Bu, Qərbin növbəti riyakarlığıdır. Gürcüstan hakimiyyəti dəfələrlə bəyan edib ki, oxşar qanunlar həmçinin Fransada, ABŞ-də və digər ölkələrdə də qəbul olunub. Ancaq həmin ölkələrə irad tutulmur, Gürcüstan isə total ittihamlarla üzləşib. Qərb dairələri həmçinin "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanuna münasibətdə də eyni kontekstdən çıxış edirlər. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Arqumentləri də budur ki, yeni qanunvericilik ölkədə "LGBT+ mövzusunda sərbəst reportaj hazırlamaq imkanlarını məhdudlaşdırır". Maraqlıdır, Gürcüstan öz ərazisində ailə institutunu qorumağa yönəlmiş addımlar atırsa, Avropa nə üçün bu qədər narahat qalır? Qərb bu qanunları "Rusiya qanunları" adlandırır. Cozef Baydenin bəyanatında oxuyuruq: "Buna görə də mən ölkənin son demokratik geriləməsindən, o cümlədən əsas azadlıqları məhdudlaşdıran və müstəqil vətəndaş cəmiyyəti təşkilatları üçün məkanı məhdudlaşdıran Rusiya qanunlarını kopyalayan qanunvericiliyin qəbulundan dərin narahatam".

Vaşinqtondan gələn belə dəyərləndirmələr milli dövlətin açıq şəkildə şantaj edilməsi anlamında qəbul olunur. Gürcüstan hakimiyyəti son illər Qərb şəbəkəsini ifşa etmək istiqamətində ciddi addımlar atıb, qanunlar qəbul edib. Elə Qərbin artan narahatlığının əsasında da məhz bu amil dayanır. Gələcəkdə ölkənin taleyini təhlükəyə atmamaq üçün, artıq Gürcüstanda Qərbin əlaltılarının şəbəkəsini tam yığışdırmağın vaxtıdır. Heç bir şübhə yoxdur ki, rəsmi Tbilisi bundan sonra da özünün milli maraqlarını və gürcü xalqının ləyaqətini qorumaq üçün qətiyyətli mövqe sərgiləyəcək.



## Ənənəvi qarşıdurma ssenariləri təkrarlanır

Vaşinqtonun, Brüsselin təhriki ilə müxalifət partiyaları parlamentdə təmsilçilikdən imtina ediblər. Həmçinin müxalif mövqedə dayanan prezident S. Zurabişvili xalqı etirazlara çağırıb. Beləliklə, Qərb Gürcüstanda ənənəvi qarşıdurma ssenarilərini təkrarlayır. Qonşu ölkədə bunun əsası 2003-cü ilin noyabrında qoyulub. O zaman Qərb Gürcüstanda "rəngli inqilab"ın qələbəsini təmin etməyə nail oldu. Belə ki, hazırda gürcü xalqının nifrətlə xatırladığı "Qızılgül inqilabı" nəticəsində prezident Eduard Şevardnadze istefa vermiş, müxalifət lideri Mixael Saakaşvili hakimiyyətə gəlmişdi. Onun hakimiyyəti dövründə ölkə müharibəyə cəlb olundu və ərazi itkilərinə məruz qaldı. 2011-ci ildən etibarən Gürcüstanda "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası yaradan milyarder Bidzina İvanişvili prezident Saakaşvili hakimiyyətinə qarşı mübarizəyə başladı. 2012-ci il oktyabrın 1-də keçirilən parlament seçkilərində İvanişvilinin başçılıq etdiyi blok qalib gəldi. O, həmin ilin oktyabrından 2013-cü ilin oktyabrınadək ölkədə hökumətə rəhbərlik edib. Sonradan bir müddət siyasi fəaliyyətdən uzaqlaşan İvanişvili 2023-cü ilin dekabrında yenidən siyasətə qayıtdığını bəyan edib. Ötən il İvanişvili "Gürcü arzusu"nun fəxri sədri olub. 2016 və 2020-ci illərin parlament seçkilərində də "Gürcü arzusu" seçkilərdən qalib çıxaraq hökuməti formalaşdırmağa nail olub. Bəhs olunan seçkilər ərəfəsində də Qərbə bağlı olan müxalifət küçələrdə çoxsaylı etiraz aksiyaları keçirirdi. Parlamentə getməkdən imtina edən müxalifət etiraz aksiyalarında həmçinin M. Saakaşvilinin azadlığa buraxılması tələbini səsləndirirdi. Ancaq bu etirazlarla xalqın və hakimiyyətin iradəsini qırmaq mümkün olmadı. Gürcüstanda sülh və saabitlik təmin olundu, ölkə inkişafa istiqamətləndi. Oktyabrın 26-da "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının növbəti dəfə qələbə çalmasının təməlində də məhz bu kimi amillər dayanır. Gürcü xalqı bu seçimlə ölkənin müharibəsiz gələcəyinə, inkişafına və sabitliyinə səs verib.

Növbəti parlament seçkilərindən sonra müxalifət yenidən eyni ssenari üzrə hərəkətə keçib. Qərbə güclü bağlılığı olan prezident S.Zurabişvili və müxalifət bu dəfə də xalqı küçələrə, etirazlara səsləyiblər. "Radikal müxalifət dövlət çevrilişi ssenarisini izləyir və konstitusion quruluşa qarşı gedir". Bunu "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyası Siyasi Şurasının üzvü, parlamentin sədri Şalva Papuaşvili oktyabrın 28-də keçirdiyi brifinqdə deyib.

Gürcü xalqının bu cür fəaliyyətləri dəstəkləməyəcəyinə əminliyini ifadə edən Papuaşvili bildirib: "Müxalifət cəbhəsində hər şey əvvəlcədən yazılmış ssenari üzrə gedir. Onlar texniki hökumət barədə danışırdılar. Biz bunu 1990-cı illərdən bəri xatırlayırıq. Onlar hakimiyyəti güc yolu ilə ələ keçirəndə texniki hökumət qururlar. Ona görə də müxalifət bütün bu ssenariyə hazırlaşıb".

Parlament sədrinin sözlərinə görə, müxalifət seçkiləri qeyri-legitim elan etmək, texniki hökumət qurmaq, bir sözlə, bu mövzuda hər şeyə hazırlaşıb. "Onların izlədiyi çevriliş ssenarisidir və bu, əlbəttə ki, konstitusion quruluşa, demokratik seçkilərə və prinsiplərə ziddir. Gürcü xalqı belə fəaliyyətlərin ardınca getməyəcək", - deyə Şalva Papuaşvili vurğulayıb.

## Azərbaycanın birmənalı dəstəyi

Cənubi Qafqaz kiçik bir məkan olsa da, strateji önəm daşıyan coğrafi yerləşməsi ilə böyük güclərin maraq dairəsindədir. Burada yerləşən üç ölkədən birinin - Ermənistanın fürsətcil mövqeyi bəllidir. N.Paşinyan iqtidarı ölkənin ənənələrinə uyğun olaraq Ermənistanın oriyentasiyasını dəyişməyə, regional maraqlara zərbə vurmağa və Qərbə qucaq açmağa hazırdır. Artıq Qərb qüvvələri bu ölkədə yerləşiblər. Azərbaycan rəhbərliyi isə ölkəmizin Qərbin qonşu dövlətlərə qarşı poliqonuna çevrilməyəcəyini dəfələrlə bəyan edib. Ölkəmizin aldığı qərarlar hansısa paytaxtlarda deyil, məhz Bakıda verilir. Gürcüstanın indiki rəhbərliyi də ortaya milli iradə qoyur.

İndiyədək Azərbaycan və Gürcüstan bir sıra qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrini birlikdə reallaşdırıblar. İndiki həssas dönəmdə də respublikamız Gürcüstanın yanındadır. Gürcüstanda növbəti parlament seçkilərində hakim partiyanın qələbəsində Azərbaycanın birmənalı dəstəyi də mühüm rol oynayıb. Azərbaycan dost və qonşu ölkəyə dəstəyini verməklə bir daha Qərbə nümayiş etdirdi ki, ölkəmizin iradəsi olmadan regionda heç bir layihə baş tutmayacaq.

***Mübariz ABDULLAYEV***

# Media: ABŞ Çinlə mümkün münaqişəyə hazırlaşır



ABŞ Silahlı Qüvvələri Çinlə mümkün münaqişəyə hazırlaşır. Amerikalı hərbçilər bu məqsədlə müxtəlif manevrlər, o cümlədən Ukrayna müharibəsində istifadə olunan taktikalar üzərində çalışır.

AZƏRTAC xəbər verir ki, "New York Times" qəzetinin yazdığına görə, ABŞ-ın dövlət başçısı postuna namizədlər Donald Tramp və Kamala Harrisin Ukrayna və Yaxın Şərqdəki müharibələrlə bağlı mövqeyi fərqli ola bilər, lakin Birləşmiş Ştatlar noyabrda keçiriləcək seçkilərdə kimin qalib gəlməsindən asılı olmayaraq, Çinlə müharibəyə hazırlaşmağa davam edəcək.

"ABŞ ordusu özünü və yüz minlərlə gənc kişi və qadını növbəti müharibəyə - bu dəfə Çinlə potensial münaqişəyə hazırlayır. Bu müharibə həm quruda, həm dənizdə və havada, həm də kosmosda aparıla bilər. Ordu da məhz həmin ssenarilər üzrə hazırlıq keçir. Amerikalı hərbçilər, eyni zamanda, Ukraynanın Rusiyaya qarşı döyüşlərini müşahidə edir və yeni manevrlər üzərində işləyir", - deyə materialda bildirilir.

Nəşrin fikrincə, Çin və ABŞ kimi nüvə silahına malik böyük dövlətlər arasında münaqişə dəfələrlə təhlükəli olacaq. Həmin müharibədə amerikalı hərbçilər arasında itkilər Birləşmiş Ştatların iştirak etdiyi ən qanlı müharibələri belə geridə qoya bilər.

Qəzet, həmçinin qeyd edir ki, ABŞ-ın bölgədəki hərbçilərinin təxminən 54 min nəfəri Yaponiyada, 25 mini Cənubi Koreyada, bir qədəri isə Filippində yerləşdirilib. "General-mayor Robert Smolls" gəmisi isə münaqişə baş verəcəyi təqdirdə Amerika texnikası və avadanlığının regiona çatdırılması üçün kritik əhəmiyyətə malikdir.

# Avropa İttifaqı ölkələri sərhəd nəzarətini gücləndirir




Almaniya və Fransanın ardından Niderlandda da Avropa İttifaqının daxili sərhədlərində sərhəd nəzarətinin tətbiqi planlaşdırılır.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, Aİ ölkələri arasında ilk dəfə Almaniya öz sərhədlərində gücləndirilmiş təhlükəsizlik yoxlamaları tətbiq edib və bu tədbirlər sərhəd-keçid məntəqələrində tıxaclara və növbələrə səbəb olub. Bənzər tədbirlər daha sonra Fransada tətbiq edilib. Fransanın hazırkı sərhəd nəzarəti oktyabrın 31-də başa çatacaq, lakin yeni yoxlamalarla bağlı qanun aktı noyabrın 1-dən qüvvəyə minəcək. Rəsmi Paris daxili sərhəd nəzarətini gələn ilin aprel ayına qədər uzadacağını açıqlayıb. Belə ki, Şengen Sazişi çərçivəsində Fransanın Belçika, İspaniya, Lüksemburq, İsveçrə, Almaniya və İtaliya ilə sərhədlərində nəzarət tətbiq ediləcək.

İndi Fransaya və ya Almaniyaya avtomobillə gedənlər bilməlidirlər ki, hər iki sərhəddə yoxlamalarla üzləşə bilərlər. Eyni zamanda, Avropa ölkələrinin hakimiyyət orqanları qeyd edir ki, bunlar qeyri-leqal miqrasiyaya nəzarətin zəruriliyi ilə bağlı müvəqqəti tədbirlərdir.

Avstriya da noyabrın 11-dək Sloveniya və Macarıstanla sərhəd nəzarətini gücləndirib. Bundan başqa, Danimarka, Norveç və İsveç noyabrın 11-dək bütün daxili sərhədlərdə yoxlamalar tətbiq edib. Sloveniyanın Xorvatiya və Macarıstanla sərhədində isə nəzarət tədbirləri bu il dekabrın 21-dək aparılacaq.

# Türkiyə “Polad günbəz” sistemi yaradır

## “Siper Blok-1” Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib

**Beynəlxalq nizamın pozulduğu indiki dövrdə hər bir ölkə özünün milli təhlükəsizliyini təmin etmək üçün silahlı qüvvələrini gücləndirir. Son 20 ildə Türkiyə öz hərbi gücünü əhəmiyyətli dərəcədə artırıb. Bu dövrdə Türkiyə öz müdafiə sənayesini çox sürətlə gücləndirib və ordusunu ən müasir hərbi texnika və atıcı silahlarla təmin edib. Son illər öz arsenalını tanınmaz dərəcədə dəyişən qardaş ölkənin ordusu dünyanın ən güclü ordularından biri kimi tanınır.**

### Prezident Ərdoğan: Biz PUA bazarında dünyanın ən böyük istehsalçısıyıq

Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 101-ci ildönümünə həsr olunmuş tədbirdə çıxışı zamanı Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, hakimiyyət regionda sərhədlərin zorakı yolla yenidən müəyyənləşdirilməsi cəhdləri fonunda milli təhlükəsizliyi qorumaq üçün bütün mümkün addımları atır. O qeyd edib ki, yüz il əvvəl olduğu kimi, bu gün də Türkiyənin yerləşdiyi bölgədə qan və göz yaşı axıdılır. Bununla bağlı dövlət başçısı türk xalqının təhlükəsizliyini və mənafelərini qorumaq əzmini xüsusi vurğulayıb. Prezident birlik və bütövlüyün təmin edilməsinin vacibliyinə diqqət çəkərək, Atatürk və onun silahdaşlarının mirası olan Cümhuriyyətin etibarlı əllərdə olduğunu əminliklə bəyan edib.

Rəcəb Tayyib Ərdoğan paytaxt Ankarada ilk milli çoxməqsədli “T625 GÖKBEY” helikopterinin jandarm qüvvələrinə təhvil verilməsi mərasimindəki çıxışında isə bildirib ki, dünyanın ən böyük pilotsuz uçuş aparatları (PUA) istehsalçısı olan Türkiyə əsas diqqətini pilotsuz və avtonom döyüş platformalarının işlənib hazırlanmasına yönəldəcək və ölkə üçün istənilən potensial təhdidin qarşısını almaq üçün çoxsəviyyəli “Polad günbəz” hava hücumundan müdafiə sistemi yaradacaq. “Biz PUA bazarında dünyanın ən böyük istehsalçısıyıq. 2018-ci ildən bu günə qədər dünya üzrə bütün PUA satışlarının 65 faizi Türkiyə şirkətlərinin payına düşür. PUA istehsalı ilə yanaşı, biz yaxın gələcəkdə əsas diqqəti döyüş platformalarının - pilotsuz və avtonom dəniz nəqliyyat vasitələrindən tutmuş, sualtı platformalara və təyyarədaşıyanlara qədər - işlənib hazırlanmasına yönəldəcəyik”, -deyə Ərdoğan vurğulayıb.



### “Daha heç kimdən icazə almırıq”

O, Türkiyənin təhlükəsizliyi üçün hava hücumundan müdafiə sistemlərinin həyati əhəmiyyətini qeyd edib: “Terrorçuların ölkə ərazisinə soxulmasından tutmuş, düşmən elementlərin hücumlarına qədər bir çox asimmetrik təhdidləri aradan qaldırmaq üçün çoxsəviyyəli hava hücumundan müdafiə sistemlərini gücləndirməliyik”.

Türkiyə lideri bəyan edib ki, milli təhlükəsizliyimizlə bağlı addımlar atarkən daha heç kimdən icazə almırıq, kimin nə düşündüyünü soruşmuruq.

Onun sözlərinə görə, əvvəllər bizə silah verənlər atdığımız güllələrin sayını tutur, bəzən də hesaba çəkirdilər: “Terrorla mübarizəmizdə daim maneələrlə qarşılaşardıq, artıq öz hazırladığımız silahlardan istifadə edərək bütün problemlərin öhdəsindən gəlirik. Təbii ki, bununla kifayətlənməyəcəyik. Qarşıdakı dövrdə heç bir sahəni diqqətdən kənarda qoymadan, dostlara etimad, düşmənlərə isə qorxu aşılayan çəkindirici gücə nail olana qədər çalışacağıq”.

### “Siper Blok-1” “Polad günbəz” sisteminin yeni elementinə çevrilib

Qeyd edək ki, Türkiyədə yaradılacaq çoxsəviyyəli “Polad günbəz” hava hücumundan müdafiə sistemi ölkənin hava hücumundan müdafiə sistemlərinin vahid şəbəkəyə inteqrasiyasını və real vaxt rejimində qərarların qəbulu üçün onun vasitəsilə məlumatların ötürülməsini nəzərdə tutur. Artıq uzunmənzilli hava hücumundan müdafiə sistemi olan “Siper Blok-1” Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilib. “Siper Blok-1” ölkənin “Polad Günbəz” (“Çelik Kubbe”) sisteminin yeni elementinə çevrilib. Türkiyə mediası yazır ki, sözügedən sistem ABŞ istehsalı olan “Patriot” və Rusiya istehsalı olan “S-400”ə bənzərdir. “Siper”in batareyasına 4 ədəd raket buraxıcı sistemi, 2 ədəd raket yükləmə sistemi, 1 ədəd “Teirs” radarı, 1 ədəd atəşi idarəetmə mərkəzi, 1 ədəd atəşə nəzarət radarı və 3 ədəd rabitə stansiyası daxildir.

### İnsansız sualtı qayıqların hazırlanması hədəflər sırasındadır

Bundan başqa, Türkiyə sualtı qayıq layihəsini də uğurla reallaşdırır. Hələ 2015-ci ildə Yeni Tip Sualtı Qayıq Layihəsi çərçivəsində yerlilik göstəricisi yüksək olan “Type-214TN (Reis)” sinfinə məxsus sualtı qayıqların istehsalına başlayan Türkiyə 2017-ci ilin iyun ayında MİLDEN (Milli Sualtı Qayıq) layihəsinə start verib və dizaynı tamamilə Türkiyədə həyata keçiriləcək çox yüksək yerli resurs payına malik sualtı qayıqların istehsalını təhlil edib. 2019-cu ilin aprel ayında Hərbi Dəniz Qüvvələri Komandanlığı tərkibində MİLDEN Dizayn Layihə Ofisi yaradılıb və MİLDEN Layihəsi rəsmi olaraq başlayıb. 2022-ci ilin əvvəlində MİLDEN-in konseptual dizaynları tamamlanıb və qabaqcıl dizayn mərhələsinə start verilib. İlk vaxtlarda - 2022-ci ilin avqust ayına olan məlumata görə, Layihə Ofisində 23-ü mühəndis, 5-i texniki layihəçi olmaqla 28 işçi çalışıb. Layihə irəlilədikcə personal sayı da artır.

2025-ci ilə qədər layihələndirmə işlərinin başa çatdırılması və Gölcük Gəmiqayırma Zavodunda ilk gəminin istehsalına başlanması planlaşdırılır. İlk gəminin 2031-ci ilə qədər tamamlanacağı gözlənilir. MİLDEN sualtı qayıqlarının Türkiyənin daxili imkanlarla inkişaf etdirdiyi və inkişaf etdirəcəyi bütün silahlara (“Akya”, “Atmaca”, “Gezgin”) və sistemlərə sahib olacağı məlumdur. Nə qədər sualtı qayığın istehsal olunacağı bəlli deyil. Elan edilmiş uzunluq və subasımı məlumatının gələcəkdə dəyişəcəyi ehtimal edilir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışlarında deyib ki, hazırda hədəf insansız sualtı qayıqlar hazırlamaqdır.

### “KAAN” - Türkiyənin növbəti uğuru

Türkiyə ən yeni nəsil texniki göstəricilərə malik qırıcılar, helikopterlər və avtomobillər də istehsal edir. Türkiyə milli döyüş təyyarəsi “KAAN”ı istehsal etməklə dünyada 5-ci nəsil qırıcı istehsal edən 5 ölkədən biri sayılır. “KAAN”ın texniki xüsusiyyətlərinə gəldikdə isə, Türk Təyyarə Sənayesi Şirkətinin (TUSAŞ) yerli və milli imkanlarla inkişaf etdirdiyi milli döyüş təyyarəsi Pilotsuz Uçuş Aparatlarının hava xəbərdarlıqları, nəzarəti kimi funksiyalarını özündə cəmləşdirir. Yeni nəsil silahlarının vasitəsilə havadan havaya döyüş aparmaq qabiliyyətinə malik təyyarə daxili silah yuvalarından səsdən yüksək sürətlə dəqiq zərbələr endirmək iqtidarındadır. Onun döyüş gücü süni intellekt və neyron şəbəkə dəstəyi ilə artırılıb.




Xatırladaq ki, Türkiyənin “KAAN” milli hərbi təyyarəsi bu ilin fevralında ilk uçuşunu uğurla həyata keçirib. Türkiyənin Aerokosmik Sənayesi tərəfindən həyata keçirilən ən mühüm texnologiya layihələrindən biri olan “KAAN”ın uçuşu üçün bütün texniki və laboratoriya sınaqları tamamlanıb. Ötən il martın 17-də “KAAN” ilk dəfə uçuş-enmə zolağına çıxarılmışdı. Bunun ardından türk mühəndisləri tərəfindən son 9 ayda təyyarənin səmaya qaldırılması üçün hazırlıqlar aparılıb. “KAAN”ın qanadlarının uzunluğu 14, hündürlüyü 6, uzunluğu isə 21 metrdir. Təyyarənin kokpiti bir pilot üçün nəzərdə tutulub. Qoşa mühərriki, yüksək manevr qabiliyyəti, radardan yayınması, gəmidə silah daşıma və elektron döyüş qabiliyyətləri bu hərbi hava vasitəsinin ən diqqətçəkən xüsusiyyətləridir. Hər cür hava və yer hədəflərinə strateji hücum imkanı yaradacaq təyyarə yüksək döyüş məsafəsi və supersonik sürətlə dəqiq atəş xüsusiyyətləri ilə də fərqlənir.

Bütün bunlar Türkiyənin hərbi sənayesinin parlaq nailiyyətləridir. Bu faktor beynəlxalq miqyasda qardaş ölkənin önəmini daha da artırır.

***Nardar BAYRAMLI***

# Finlandiyada Rusiyanın əmlaklarına həbs qoyulub

## Bu addım Ukrayna şirkətlərinin tələbi ilə atılıb

Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Finlandiya rəsmi Moskva ilə əlaqələrə ehtiyatla yanaşır. Finlandiya NATO-ya üzv olduqdan sonra Rusiyaya münasibətlərə alyansın mövqeyi kontektindən çıxış edir. Nəzərə alaq ki, bu dövlət Rusiya ilə sərhədi olan NATO ölkəsidir.

**Finlandiya Rusiya ilə sərhəddə məhdudiyyət tətbiq edir**

İndiyə qədər rəsmi Helsinki sözügedən müharibə başlayandan sonra Rusiyaya qarşı sanksiyalara qoşulmaqla kifayətlənməyib. Bu ölkə bir müddət Rusiya ilə sərhdələri tam bağlamışdı, sonradan isə müəyyən məhdudiyyətlərlə sərhədlər açılıb. Oktyabrın 24-də isə Finlandiya Rusiya ilə sərhəddəki iki müvəqqəti keçid məntəqəsini tamamilə bağlayıb. Bu barədə Finlandiyanın sərhəd xidməti məlumat yayıb. Söhbət “Parikkala” və “İnari” nəzarət-buraxılış məntəqələrindən gedir. “Belə müvəqqəti keçid məntəqələrinin açılması və bağlanması barədə qərar Finlandiya və Rusiya sərhəd xidmətlərinin rəisləri tərəfindən qəbul olunur”, - deyə mətbuat üçün açıqlamada bildirilib. Finlandiya sərhəd keçidlərində məhdudiyyətlər tətbiq etməyə 2023-cü ilin noyabrında - üçüncü ölkələrdən qaçqınların nəzarətsiz axını fonunda başlayıb.

**Tələbi hansı şirkətlər irəli sürüb?**

Rəsmi Helsinki Moskvanı sığınacaq axtaranları sərhədə yönləndirməkdə ittiham edib. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova isə Avropa İttifaqında yaranmış miqrasiya böhranında Rusiyanın əli olması barədə ittihamları rədd edərək, bunu Qərbin ikili standartları adlandırıb.

Daha bir addım isə Finlandiyada Rusiya əmlakına qarşı atılan addımlardır. Belə ki, bugünlərdə Rusiyanın Finlandiyadakı 5 daşınmaz əmlakına həbs qoyulub. Bu barədə “Helsingin Sanomat” qəzeti məlumat yayıb. Qəzetin yazdığına görə, oktyabrın 28-də Rusiyanın



iddialara məruz qalan daha beş daşınmaz əmlak obyektini aşkar etmək mümkün olub, onlardan üçü Aland adalarında yerləşir. Qeyd olunur ki, Helsinkinin mərkəzində yaşayış binası və Lauttasaari ərazisində ofis binası, həmçinin Aland adalarında dəniz kənarındakı torpaq sahəsi də daxil olmaqla, üç obyekt üzərində həbs qoyulub. Bu əmlaklar Finlandiya məhkəməsinin qərarı ilə müsadirə olunub.

Müsadirə qərarları altı Ukrayna şirkətinin tələbi əsasında qəbul edilib. Qərarlardan aydın olur ki, ərizələr avqustun 7-də Rusiya Federasiyasına qarşı Helsinki məhkəməsinə “Ukrqazvydobuvannya” Səhmdar Cəmiyyəti, “Ukrtransqaz” Səhmdar Cəmiyyəti, “Ukrtransnafta” Səhmdar Cəmiyyəti, “Çernomornefteqaz” Milli Səhmdar Cəmiyyəti, Ukraynanın Naftogaz Səhmdar Cəmiyyəti, “Ukrayna Qazı” törəmə şirkəti adından daxil olub: “Rayon məhkəməsi Rusiya Federasiyasının daşınar və (və ya) daşınmaz əmlakının ərizəçilərin göstərdiyi məbləğdə - 4 222 875 858,81 ABŞ dolları, 23 889 036,26 ABŞ dolları və 882 435,90 avro məbləğində müsadirə edilməsi barədə qərar çıxarır”.

**Finlandiyaya nota verilib**

Rusiya səfirliyindən əvvəlcə TASS agentliyinə bildirilib ki, RF mülkiyyətinin həbsinə dair Finlandiya hakimiyyətindən rəsmi bildiriş almayıblar və hazırda bununla bağlı araşdırma aparılır. Daha sonra Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya Ukraynanın tələbi ilə Finlandiyadakı əmlakının müsadirə edilməsi ilə bağlı məhkəməyə müraciət edəcək.

Eləcə də, Rusiya Finlandiya səfirliyinə və bu ölkənin Xarici İşlər Nazirliyinə respublika hakimiyyətinin beynəlxalq hüququn müddəalarını kobud şəkildə pozan hərəkətlərinə kəskin etirazını bildirən nota göndərib. Səfirlik Finlandiyadakı Rusiyaya məxsus daşınmaz əmlakının müsadirəsi ilə bağlı vəziyyəti aydınlaşdırmaq üçün işlərini davam etdirir. Verilən məlumatlarda qeyd olunur ki, səfirlik Finlandiya Məhkəmə İcraçıları Xidmətinin qərarına yenidən baxılacağını gözləyir.

***N.BAYRAMLI***

## Ukraynanın böyük şəhərləri təhlükə altındadır

# Rusiya cəbhədə irəliləyir, Zelenski isə...

**Rusiya-Ukrayna müharibəsinin dayandırılması ilə bağlı çağırışlar nəticə vermir. Əksinə, son vaxtlar Rusiya ordusu hücumlarını daha da gücləndirib və Ukrayna ərazisində irəliləməyə davam edir.**

### Rusiya ordusu Donetskin Selidovo şəhərini ələ keçirib

Bu yaxınlarda Ukrayna lideri Volodimir Zelenski münaqişənin 2025-ci ildən gec olmayaraq başa çatmasına ümid bəslədiyini söyləmişdi. O, bu fikrini döyüş meydanındakı vəziyyətlə əlaqələndirməyə çalışırdı. Nəzərə alaq ki, hazırda döyüş meydanında Kiyevin əhəmiyyətli üstünlüyü yoxdur. Ukraynanın Rusiyanın Kurs vilayətində müəyyən qədər irəliləyişi döyüş meydanındakı vəziyyəti onun xeyrinə dəyişməyib. Çünki Kiyevin bu hücumu Rusiya ordusunun Donbasda irəliləməsinin qarşısını ala bilməyib. Əksinə, Kursk əməliyyatından sonra Rusiya Ukraynanın bir neçə şəhərini və kəndlərini ələ keçirib. İki gün öncə isə Rusiya ordusu Donetskin vacib Selidovo şəhərini də tutdu. Selidovun ələ keçirilməsindən sonra rus ordusunun Ukraynada cəbhəboyu vəziyyəti bu mənzərə daha aydın göstərir. Belə ki, Rusiya qoşunları artıq Ukraynanın Kupyansk şəhərinin 6 km, Xarkovun 17 km, Zaporojye - 29 km, Odessanın isə 58 km-dədir. Yəni artıq Ukraynaın bu böyük şəhərləri üçün təhlükə çox yaxındır. Hətta iki gün öncə Ukrayna Silahlı Qüvvələrinin Kiyevdəki Baş Qərargahının binası PUA mərmisinin qalıqlarının düşməsi nəticəsində zədələnib. Bütün bunlar vəziyyətin Ukrayna üçün nə qədər kritik olduğunu göstərir.

### Zelenski Qərbdən hərbi yardımların artırılmasını tələb edir

Belə olan halda, Zelenskinin müharibənin 2025-ci ildən gec olmayaraq başa çatması barədə bəyanatı real görünmür. İndiki halda, problem Rusiyanın üstünlüyü ilə başa çata bilər. Kiyevin qələbə qazanması üçün isə ona göstərilən hərbi dəstək kifayət qədər artmalıdır. Zelenski bəlkə də, Ramştayn platorması çərçivəsində verilən hərbi dəstəyə ümid edir. Təmas qrupu Ukraynaya silah və sursat yardımı göstərən 50 ölkəni əhatə edir. Ramştaynda müdafiə nazirləri səviyyəsində indəyədək bir neçə toplantı keçirilib. Lakin toplantılarda verilən qərarlar Kiyev üçün strateji nəticələrə gətirib çıxarmır. Ona görə də, Zelenski Qərb tərəfdaşlarından hərbi yardımların artırılmasını tələb edir.

### Blinkenin ənənəvi “dəstəyi”

Yeri gəlmişkən, oktyabrın 29-da ABŞ Dövlət katibi Antoni Blinken və Ukrayna Prezidenti Volodimir Zelenskinin Ofis rəhbəri Andriy Yermak Vaşinqtonda keçirilmiş görüşdə Kiyevə hərbi yardım və gələcəkdə Ukrayna ilə bağlı konfransların keçirilməsini müzakirə ediblər. Bu barədə ABŞ Dövlət Departamentinin saytında qurumun mətbuat xidmətinin rəhbəri Metyu Millerin yazılı bəyanatında deyilib: “Onlar hərbi və iqtisadi yardımı və Ukraynanın gələcək diplomatik tədbirlərini, o cümlədən Ukraynanın “sülh düsturu”nu dəstəkləyən konfransları dəstəkləmək üçün göstərilən diplomatik səyləri müzakirə ediblər”. Bəyanatda qeyd olunub ki, Blinken “Ukraynanın suverenliyinə dəstəyini” və həmçinin “BMT Nizamnaməsi əsasında möhkəm sülhə” dəstəyini təsdiqləyib. Əslində, bu bəyanat söz yığınından başqa bir şey deyil. Vaşinqton sadəcə bu cür yanaşmalarla guya Kiyevi müdafiə etdiyini göstərməyə çalışır. Reallıq isə bundan ibarətdir ki, Ukraynanı bu müharibəyə təhrik edən ABŞdır.

### Viktor Orban hesab edir ki, strategiya dəyişməlidir

Avropa İttifaqına sədrlik edən Macarıstanın Baş naziri Viktor Orban isə deyib ki, Aİ Kiyevin müharibədə məğlubiyyətini istəmirsə, Ukrayna ilə bağlı strategiyasını dəyişməlidir: “Avropa İttifaqı Ukraynada müharibə ilə bağlı yanlış siyasət aparır. Əgər biz qalib gəlmək istəyiriksə, bu uğursuz strategiyanı dəyişməliyik”. O, Avropa İttifaqını münaqişənin həlli üçün səy göstərməyə çağırıb: “Əgər bunu etməsək, müharibəyə daha çox cəlb olunacağıq və vəziyyət daha çıxılmaz olacaq. Biz müzakirə aparakən yüz minlərlə insan öləcək”.

Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen isə Viktor Orbanın mövqeyi ilə razılaşmır. Xanım Leyen deyib ki, Kiyevə nəyin bahasına olursa-olsun bütün sahələrdə dəstəyin davam etdirilməsi vacibdir. O, Ukraynanı dəstəkləmək zərurətindən danışaraq, Macarıstanın təşkilatdakı sədrliyini tənqid edib. “Ukrayna və Avropada ədalətli sülhə nail olmağın yeganə yolu var. Biz Ukrayna müqavimətini gücləndirməyə davam etməliyik, ona siyasi, maliyyə və hərbi dəstək verməliyik”, - deyə fon der Leyen bildirib. Onun fikrincə, avropalılar Ukraynanın Moskva ilə münaqişədə təslim olmasını istəmirlər. Leyenin “avazı” yaxşı gəlsə də, Ukrayna üçün Aİnin hərbi dəstəyi yetərli deyil.

Görünən odur ki, Qərb bu müharibənin davam etməsində maraqlıdır. Çünki müharibədə nə Rusiya, nə də Ukrayna qazanmayacaq. Belə davam edərsə, qazanan yalnız Qərb olacaq.



### Qətərin vasitəçiliyi ilə danışıqlar başlayıb

Silahların susmadığı şəraitdə Ukrayna və Rusiya, Qətərin vasitəçiliyi ilə enerji obyektlərinə zərbələrin dayandırılması ilə bağlı danışıqlara yenidən başlayıb. Bu danışıqlar, avqust ayında Ukraynanın Kursk vilayətinə hücumu nəticəsində kəsilmişdi. Lakin son həftələrdə, hər iki ölkənin razılaşmaları çərçivəsində qarşılıqlı enerji infrastrukturlarına hücumların sayı əhəmiyyətli dərəcədə azalıb.

Razılaşmaların əldə olunmasında əsas rol oynayan tərəf hər iki ölkənin kəşfiyyat orqanları olub. Bu addımların davamı olaraq, Rusiya və Ukraynanın enerji obyektlərinə hücumların tamamilə dayandırılması üçün müzakirələr aparılır. Danışıqların nə ilə nəticələnəcəyi və tərəflərin tam razılığa gəlib-gəlməyəcəyi hələlik məlum deyil. Lakin bu cəhdlər regionda gərginliyi azaltmaq və enerji infrastrukturlarının qorunması üçün mühüm bir addım kimi dəyərləndirilir.

***N.BAYRAMLI***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Ən çox şəhər Şimali Amerikadadır...

## Dünya Şəhərlər Günüdür



Hazırda planetin bütün sakinlərinin 55 faizi şəhərlərdə yaşayır. Şəhərlər intellektual fəaliyyət, ticarət, mədəniyyət, elm, sosial inkişaf və digər sahələrin mərkəzləridir. Dünyada ümumi daxili məhsulun 80 faizindən çoxu şəhərlərin payına düşür.

### 2050-ci ilədək...

Birləşmiş Millətlər Təşkilatından (BMT) bildirilib ki, sürətli urbanizasiya ətraflı düşünülməlidir, yalnız bu halda əhalinin məşğulluğunun və rifahının yaxşılaşdırılmasına nail olmaq mümkündür. Təşkilatın məlumatına görə, 2050-ci ilədək dünya əhalisinin 75 faizi şəhərliyə çevriləcək. Şəhər sakinlərinin sayının sürətli artımı, həmçinin sənayeləşdirilmə sahəsində yeni imkanların açılmasını vəd edir. Lakin bununla yanaşı, bu şəhərlərin əhalisinin həddən artıq olması, qeyri-bərabərliyin artması və ətraf mühitin çirklənməsi ilə nəticələnəcək.

İqlim dəyişmələrinə qarşı əsas mübarizə məhz şəhərlərdə aparılır. Şəhərlərin planlaşdırılması və inkişafı üzrə çoxlu velosiped yolları və piyada zonaları, yaşıllıqların nəzərdə tutulduğu yeni strategiyaya keçid parnik qazları emissiyasını kəskin şəkildə azaltmağa imkan yaradacaq. Gələcəyin “yaşıl” şəhərlərində işıqlandırma, isitmə və soyutma qazıntı şəklində çıxarılan yanacaq hesabına deyil, bərpaolunan enerji mənbələri hesabına təmin ediləcək.



### Ən az şəhər sakinləri Afrika və Asiyadadır

BMT-nin bu yaxınlardakı məruzələrinin birində deyilir ki, hazırda ən çox şəhər Şimali Amerikada yerləşir. Orada şəhər sakinləri əhalinin 82 faizini təşkil edir. Ən az şəhər sakinləri hələ ki, Afrika və Asiyadadır. Lakin artıq 2030-cu ilədək Afrika əhalisinin 47 faizi və Asiya əhalisinin 56 faizi şəhərlərdə yaşayacaq. Avropada isə bu müddətdə şəhər sakinlərinin sayı 77 faiz təşkil edəcək.

### Əhalinin ən sıx yerləşdiyi şəhər...

Bu gün dünyada əhalinin ən sıx yerləşdiyi şəhər aqlomerasiyası 37,2 milyon nəfərlə Tokio hesab edilir. Sonrakı yerləri Dehli (22,7 milyon), Mexiko və Nyu-York (hər ikisi 20,4 milyon), Şanxay (20,2 milyon) və San-Paulu (19,9 milyon) tutur.

Qeyd edək ki, bu gün Dünya Şəhərlər Günüdür. Bu gün 2014-cü ildən başlayaraq hər il 31 oktyabr tarixində qeyd olunur. Əlamətdar gün dünya urbanizasiyası problemlərinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədi daşıyır.

*Yeganə BAYRAMOVA*

# BMT-nin biomüxtəlifliyin qorunması üzrə danışıqları dalana dirənib

Kolumbiyanın Kali şəhərində keçirilən BMT-nin Biomüxtəliflik Konvensiyası Tərəflərinin 16-cı konfransının ikinci həftəsi başlayıb və bu müddət ərzində iştirakçı ölkələr tələb olunan milyardlar əvəzinə milyonlarla dollar ayırmağa söz veriblər.

7 ölkə və bir əyalət hökuməti Qlobal Biomüxtəliflik Konvensiyası Çərçivəsinə əlavə olaraq 163 milyon ABŞ dolları ayırmağı öhdəsinə götürüb.

Fond 2030-cu ilə qədər təbiət itkisini dayandırmaq üçün 2022-ci il Kunming-Monreal Qlobal Biomüxtəliflik Konvensiyası Çərçivəsində müəyyən edilmiş məqsədlərə nail olmaq üçün yaradılıb. Kolumbiyada keçirilən konfransın vəzifəsi bu sazişi həyata keçirməkdir.

Hüquq müdafiəçisi qruplar fondun ümumi vəsaitinin vəd edilən milyardlarla dollar əvəzinə təxminən 400 milyon dollara çatdığını bildiriblər. Təbiətin görünməmiş tənəzzülü və növlərin sürətlə nəslinin kəsildiyi bir şəraitdə alimlər bütün dünya hökumətlərinə xəbərdarlıq ediblər. Onlar bildiriblər ki, artıq itirməyə vaxt yoxdur.

Beynəlxalq Təbiəti və Təbii Sərvətləri Mühafizə Birliyinin (IUCN) məlumatına görə, hazırda dünyadakı ağac növlərinin təxminən 38 faizi - cəmi 16 min 425 növü kənd təsərrüfatına yer açmaq, faydalı qazıntıların çıxarılması, yol tikintisi və digər fəaliyyətlər üçün kəsilir və ya budanır. Bunun nəticəsində onlar yox olmaq təhlükəsi ilə üzləşib.



Təbiətşünaslar arasında “30/30” kimi tanınan sammitin əsas məqsədlərindən biri hər bir ölkənin 2030-cu ilə qədər öz ərazisinin 30 faizini bərpa etməsidir.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının (UNEP) oktyabrın 28-nə olan məlumatına görə, dünyanın quru və daxili sularının yalnız 17,6 faizi hansısa formada mühafizə altında olub. Bir çox ölkələr bu ayın bitməsinə baxmayaraq, hələ də öhdəliklərini təqdim etməyiblər.

UNEP-in hesabatında açıq okeanın mühafizəsi üzrə öhdəliklərin daha aşağı olduğu, hazırda dəniz və sahilyanı ərazilərin yalnız 8,4 faizinin qorunduğu göstərilib.

BMT-nin bu qurumu ölkələri təkcə 30 faizlik biomüxtəlifliyin mühafizəsi hədəfinə çatmağa deyil, həm də çöllük ərazilərə və ya onsuz da az sayda canlı təbiətə və ya əhaliyə malik olan digər ərazilərə üstünlük verməyə, xüsusilə qiymətli torpaqlarda və su yollarında mühafizəni hədəf almağa çağırır.

Kolumbiyada keçirilən sammitdəki nümayəndələr indi yerli xalqların tanınması və biomüxtəliflik məsələləri üzrə qərarların qəbulu, o cümlədən bu qrupların BMT-nin Bioloji Müxtəliflik üzrə rəsmi Konvensiya prosesində yeni daimi iştirakı üzrə razılığa gəlməyə yaxındırlar.

Bununla belə, bir çoxları sammitin uğurunun göstəricisi kimi təbiətin mühafizəsinin maliyyələşdirilməsi üçün güclü variantlar təqdim ediləcəyini gözləyir.

# Fuci dağı qarsız qalıb



Yaponiyanın meteorologiya idarəsinin məlumatına görə, bu payız mövsümündə Yaponiyanın Fuci dağında qar yağmayıb. “The Guardian” nəşri yazır ki, bu, 130 il əvvəl burada qar örtüyünün qeydə alınmasına başlayandan bəri dağın yamaclarında qarın olmadığı ilk hadisədir.

AZƏRTAC xəbər verir ki, vulkanın qar örtüyü orta hesabla oktyabrın 2-də əmələ gəlməyə başlayır və ötən il Fuci dağında ilk qar oktyabrın 5-də yağıb.

Kofu yerli meteorologiya bürosunun sinoptiki Yutaka Katsuta bildirib ki, bu il havaların isti olması səbəbindən Yaponiyanın ən yüksək dağı hələ də qar görməyib.

Sinoptikin sözlərinə görə, bu yay temperatur normadan yüksək olub və soyuq hava dalğasını uzaq tutaraq sentyabr ayına qədər davam edib. Onun fikrincə, iqlim dəyişikliyi qar örtüyünün əmələ gəlməsinin gecikməsinə müəyyən təsir göstərə bilər.

Yaponiyada bu ilin yay mövsümü rekord dərəcədə isti olub.

## Elan

“Bakı Mərmər Qranit “ MMC kreditorlarının diqqətinə çatdırır ki, qanunvericiliyə uyğun olaraq ödənilməli olan, lakin ödənilməmiş müavinətlərin, əmək haqqıların və digər borcların ödənilməsi prosesinə 01 dekabr 2024-cü il tarixdən başlanacaqdır. Məhdud Məsuliyyətli Cəmiyyətdən maddi tələbi olan keçmiş işçilərinin müraciətləri qanunvericiliyə uyğun olaraq araşdırılacaq və əsaslı olan müraciətlər üzrə ödənişlər nağdsız qaydada həyata keçiriləcəkdir.

Tələbi olanlardan xahiş olunur ki, əsaslı tələblərinin ödənişi ilə bağlı Məhdud Məsuliyyətli Cəmiyyətə müvafiq sənədlərini (bank rekvizitləri əlavə edilməklə) təqdim etməklə müraciət etsinlər.

**Ünvan:** Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan ŞTQ, Xocasən yolu 7
**Əlaqə nömrəsi:** (055) 803-07-38

## İdman

### Eldəniz Əzizli dördüncü dəfə dünya çempionu olub




Azərbaycanın yunan-Roma güləşçisi Eldəniz Əzizli Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb.

AZƏRTAC xəbər verir ki, 55 kiloqramda mübarizə aparan idmançı həlledici mərhələdə İran təmsilçisi Poya Marz ilə qarşılaşıb. Rəqibinə xalların keyfiyyətinə görə qalib gələn E.Əzizli dördüncü dəfə dünya çempionu olub. O, daha əvvəl 2018, 2022 və 2023-cü illərdə keçirilən dünya çempionatlarında qızıl medal qazanıb.

55 kiloqramda mübarizə aparan idmançı beşinci dəfə dünya çempionu olduqdan sonra güləşlə vidalaşacağını bildirib: “Gələcəkdə nə olacağını bilmirəm. Amma beşinci dəfə dünya çempionu olmaq istəyirəm. Gələn il təşkil olunacaq Avropa çempionatında isə çıxış etməyəcəyəm”.

Finalda məğlub etdiyi İran təmsilçisi Poya Marzla görüşündən də danışan idmançı əlavə edib: “Onunla dörd dəfə qarşılaşmışam və hər birində qalib gəlmişəm. Bir-birimizi yaxşı tanıyırıq. Bu səbəbdən rəqib dünənki qarşılaşmamızda (1:1) qələbəyə yaxın idi”.

### AFFA İntizam Komitəsi 4 klubu cərimələyib




AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, iclasda Misli Premyer Liqasının XI turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.

“Turan Tovuz” - “Kəpəz” oyununda hər iki komandanın 5 futbolçusu sarı vərəqə aldığına görə qərb təmsilçiləri 700 manat cərimə edilib. Matç bitdikdən sonra qonaqların üzvü Dioqo Verdaska hakimin qərarına etiraz etdiyi üçün ikinci sarıdan qırmızı vərəqə alaraq, 1 oyunluq cəzalanıb, klub isə əlavə 500 manat ziyana düşüb.

“Səbail” - “Sumqayıt” qarşılaşmasında hər iki tərəfin 4 futbolçusu sarı vərəqə aldığına görə klublar 700 manat cərimələnib.

### Qılıncoynadanlarımız Gimnaziadanı 4 medalla başa vurublar





Azərbaycan qılıncoynadanları Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarını 4 medalla başa vurublar.

AZƏRTAC xəbər verir ki, qız sablyaçıların şəxsi yarışında Valentina Zeynalova qızıl, Leyla Əhmədova bürünc mükafata yiyələniblər.

Oğlan şpaqaçıların mübarizəsində isə Mirxətai Məmmədov və Emin Səfərbəyov isə üçüncü yerləri tutublar.

Qeyd edək ki, oktyabrın 30-dək davam edəcək Gimnaziadada Azərbaycan 16 növ üzrə 160 idmançı ilə təmsil olunur.

### Avropa reytinqi: Azərbaycan minifutbol yığması 2-ci pillədə qərarlaşıb

Avropa Minifutbol Federasiyası milli komandaların yeni reytinq cədvəlini açıqlayıb.

AZƏRTAC xəbər verir ki, siyahıda Azərbaycan yığması 2-ci pillədə qərarlaşıb. Milli komanda yalnız Rumıniya seçməsindən geri qalıb.

Son Avropa çempionu Serbiya 3-cü, Qazaxıstan kollektivi isə 4-cü sırada yer alıb. İlk “onluq”da, həmçinin Bolqarıstan, Fransa, Slovakiya, Monteneqro, Macarıstan və Çexiya kollektivləri də var.



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4832
Sifariş: 2507
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli